# Ərdoğan koronavirusdan sağalıb

Türkiyə Prezidentinin testləri neqativ çıxıb



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yeni növ koronavirus (COVID-19) infeksiyasından sağalıb.**

"Anadolu" Agentliyi xəbər verir ki, Ərdoğanın koronavirus testləri neqativ çıxıb.

*Xatırladaq ki, koronavirusun bəzi simptomlarından dolayı fevralın 5-də R.T.Ərdoğanın verdiyi test pozitiv çıxmışdı.*

# Xankəndində qaz kəsildi

Partlayış nəticəsində ölən var



**Xankəndi qazsız qalıb.**

Milli.Az xəbər verir ki, sülhməramlıların nəzarət zonasında olan Xankəndi şəhərini qazla təmin edən magistral kəmərdə boru partlayıb, nəticədə şəhərə mavi yanacağın verilməsi dayandırılıb.

İlkin versiyalara görə, magistral qaz kəmərində qəzaya səbəb Kiçik Qaladərəsi (Kirov) qəsəbəsindəki qaz kəməri hissəsində boru kəmərinə icazəsiz və qanunsuz qoşulma nəticəsində baş vermiş partlayış olub. Partlayış nəticəsində bir yerli sakin həlak olub, dağıntılar var.


№ 26 (5548), 2022-ci il

Qiymәti 40 qәpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 11 fevral 2022-ci il (cümə)




# Kəlbəcərdə yeni hərbi infrastruktur istifadəyə verilib

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində yüksək dağlıq ərazilərdə xidmət aparan hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər davam etdirilir.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Kəlbəcər rayonunda səfərdə olan Müdafiə Nazirliyinin rəhbərliyi yeni inşa olunan hərbi infrastrukturun açılışında iştirak edib.

Hərbi qulluqçular üçün yaradılan şəraitlə tanış olan general-polkovnik Zakir Həsənova məruzə olunub ki, burada şəxsi heyət üçün lazımi şərait yaradılıb. İnfrastruktur bütün zəruri ehtiyacları təmin etmək məqsədilə müasir avadanlıq, mebel və inventarlarla təchiz olunub.

(səh.2)



## Kəskin qiymət dəyişmələrinin qarşısı alınacaq

Dövlət Agentliyinə vəzifə həvalə olunub

**Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyi daxili bazarda ölkənin strateji əhəmiyyətli malları üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısının almalıdır.**

Bu, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin nizamnaməsi"ndə əksini tapıb.

Nizamnaməyə əsasən, Agentliyin fəaliyyət istiqamətlərindən biri də ölkənin strateji əhəmiyyətli mallarla təchizatının dayanıqlılığının təmin edilməsi və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısının alınması istiqamətində tədbirlər görməkdir.

Eyni zamanda ölkənin strateji əhəmiyyətli mallarla təchizatının dayanıqlılığının təmin edilməsi və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısının alınması məqsədilə tədbirlər görmək Agentliyin vəzifələri sırasına daxildir.

## Aİ Azərbaycanla qaz tədarükü üzrə aktiv danışıqlar aparır



**Avropa İttifaqı (Aİ) qaz tədarükünə dair ABŞ, Norveç, Əlcəzair, Azərbaycan və Qətər kimi tərəfdaşlarla fəal danışıqlar aparır.**

APA-nın xəbərinə görə bunu Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen "Avropa Sənaye Günləri 2022"də çıxışında bildirib.

O deyib ki, Avropa təbii qazın 90%-ni kənardan idxal edir və hazırda COVID-19-dan sonrakı canlanma ilə əlaqədar təbii qaza tələbat bütün dünyada artıb.

Ursula von der Leyen hazırkı geosiyasi gərginliyin də bu məsələyə təsirsiz qalmadığını deyib.

# "Omikron"a yoluxanlar xəstəliyi yüngül keçirir

## Səhiyyə naziri: "Hazırda məhdudlaşdırıcı addımların atılmasına zərurət yoxdur"




**"Səhiyyənin yeni müstəviyə qaldırılması nəzərdə tutulub". Bunu Səhiyyə naziri Teymur Musayev brifinqdə deyib. Nazir bildirib ki, ilk dövrdən başlayaraq dövlət başçısı vətəndaşların sağlamlığının qorunmasını bəyan edib:**

"Qısa müddətdə müasir avadanlıqla təchiz olunmuş xəstəxanalar istifadəyə verilib. Tələb olunan müasir dərman vasitələri ölkəyə gətirilib. Vətəndaşların mövcud vaksinlərə əlçatanlığı təmin olunub. Pandemiya bir daha göstərdi ki, ən böyük sərvət insan kapitalıdır".

T.Musayev vurğulayıb ki, nazirliklə yanaşı səhiyyə sektorunda fəaliyyət göstərən digər dövlət qurumları da var: "Səhiyyənin yeni müstəviyə qaldırılmasında orta və qısamüddətli addımlar nəzərdə tutulub.

(səh.5)



## Magistraturaya sənəd qəbulunun vaxtı uzadılıb

**Ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına sənəd qəbulunun müddəti uzadılıb.**

Dövlət İmtahan Mərkəzinin məlumatına görə, sənəd qəbulu bu gün saat 23:59-da başa çatmalı idi. Ancaq müddət fevralın 11-i saat 10:00-dək uzadılıb.

Qeyd edək ki, bu gün saat 16:25-dək 16 380 nəfərin (Azərbaycan bölməsi - 15007 ; rus bölməsi - 1373) ərizəsi qəbul edilib.

*Xatırladaq ki, sənəd qəbuluna fevralın 1-dən başlanılıb. Magistraturaya qəbul imtahanı fevralın 20-də keçiriləcək.*

# Kəlbəcərdə atəş səsləri...

Ermənilərin Qarabağ bölgəsində törətdiyi insidentlər intensiv hal alır

**Ermənistan Kəlbəcər istiqamətində atəşkəsi yenidən pozub.**

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsində yerləşən mövqelərimizi atıcı silahlardan atəşə tutub. Bölmələrimizin cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub. Xatırladaq ki, fevralın 6-da Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsi tərəfindən Tərtər rayonunun Qapanlı kəndi atəşə məruz qalmışdı. Mülki əhali və bölmələrimizin şəxsi heyəti arasında xəsarət alan olmasa da, evlərə ziyan dəymişdi.

(səh.4)



## Son sutkada 7 632 nəfər koronavirusa yoluxub

24 nəfər ölüb, 5 797 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 7 632 yeni yoluxma faktı qeydə alınıb, 5 797 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən xəbərə görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 24 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 725 777 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 665 909 nəfər müalicə olunaraq sağalıb, 8 972 nəfər vəfat edib, aktiv xəstə sayı 50 896 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 19 491, ötən müddət ərzində isə ümumilikdə 6 335 593 test aparılıb.*

## Bakıda baxımsız qalan 2 yaşlı uşaq dövlət nəzarətinə götürülüb

Anası Belarus vətəndaşıdır, atası isə tüfeyli həyat tərzi sürür



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Bakının Nərimanov rayonunda baxımsız qalan iki yaşlı körpə ilə bağlı yayılan məlumatlara münasibət bildirib.**

Dövlət Komitəsinin mətbuat katibi Teymur Mərdanoğlu "Report"a bildirib ki, faktla bağlı quruma müraciət daxil olub.

(səh.4)



## Qış tətilinin uzadılmasının mümkün olan, olmayan tərəfləri var

Təhsil eksperti ali məktəblərə nisbətən orta məktəblərdə təhlükəli vəziyyətdən danışıb

(səh.4)

## "Kim nəzarətsiz qalırsa, oğurlamağa başlayır"

Fazil Mustafa: "Mütləq cəmiyyətdə cəzasızlığın olmadığını göstərən addımlar atılmalıdır"



(səh.5)

# Kəlbəcərdə yeni hərbi infrastruktur istifadəyə verilib



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində yüksək dağlıq ərazilərdə xidmət aparan hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər davam etdirilir.**

Müdafiə Nazirliyindən ”Şərq”ə verilən məlumata görə, Kəlbəcər rayonunda səfərdə olan Müdafiə Nazirliyinin rəhbərliyi yeni inşa olunan hərbi infrastrukturun açılışında iştirak edib.

Hərbi qulluqçular üçün yaradılan şəraitlə tanış olan general-polkovnik Zakir Həsənova məruzə olunub ki, burada şəxsi heyət üçün lazımi şərait yaradılıb. İnfrastruktur bütün zəruri ehtiyacları təmin etmək məqsədilə müasir avadanlıq, mebel və inventarlarla təchiz olunub. Burada silah otağı, yataqxana, yeməkxana, mətbəx, tibb məntəqəsi, əşya anbarları, məişət otağı, hamam-sanitar qovşağı və ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar mövcuddur. Bina işıq, su və kommunikasiya xətləri, o cümlədən mərkəzi istilik və yanğın əleyhinə siqnalizasiya sistemləri ilə təchiz edilib. İqlim şəraitinin daha sərt olması nəzərə alınaraq yataqxanalarda əlavə olaraq müasir odun sobaları da quraşdırılıb.

Yeməkxana ilə tanışlıq zamanı müdafiə nazirinə məruzə olunub ki, burada müasir avadanlıqla tam təchiz edilən mətbəx, ərzaq anbarları, eləcə də hərbi qulluqçuların isti yeməklə təminatına cavabdeh personal üçün ayrıca istirahət otağı mövcuddur. Həmçinin yeməkxanada müasir çörəkbişirmə avadanlığı quraşdırılıb. Şəxsi heyət daim təzə çörəklə təmin edilir. Yeməkxanada sanitar-gigiyenik qaydalara tam riayət olunur.

Sonra Müdafiə Nazirliyin rəhbər heyəti hərbi obyektin avtomobil parkını da ziyarət edib. Park ilə tanışlıq zamanı çətin relyefli və qarlı ərazilərdə şəxsi heyətin, o cümlədən yüklərin fasiləsiz daşınmasının təmin edilməsi məqsədilə yeni istifadəyə verilən tırtıllı və xizəkli texnikalar haqqında məlumat verilib.

Döyüş hazırlığı planına uyğun keçirilən məşğələlərin gedişatı ilə maraqlanan general-polkovnik Z.Həsənova məruzə edilib ki, qar üzərində yerimək üçün xüsusi fərdi avadanlıqlar və silahlanmaya yeni qəbul edilən xüsusi texnikanın gücü ilə bölmələrin çevik və təhlükəsiz hərəkəti təmin edilib.

Müdafiə naziri hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, eləcə də döyüş növbətçiliyinin daim yüksək səviyyədə aparılması barədə müvafiq tapşırıqlar verib.

## Elnur Əliyev iqtisadiyyat nazirinin birinci müavini təyin edildi



**Prezident İlham Əliyev E.A.Əliyev Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini təyin edilməsi haqqında Sərəncam verib.**

Sərəncamla Elnur Aydın oğlu Əliyev Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini təyin edilib.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Dövlət başçısının digər sərəncamı ilə Elnur Aydın oğlu Əliyev Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini vəzifəsindən azad edilib.

## MDB liderlərinin növbəti görüşünün yeri və vaxtı açıqlanıb

**Müstəqil Dövlətlər Birliyi (MDB) xarici işlər nazirləri Şurasının növbəti iclası 2022-ci il oktyabrın 13-də Nur-Sultanda keçiriləcək.**

APA-nın Moskva müxbirinin xəbərinə görə, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin Birinci MDB ölkələri Departamentinin direktoru Mixail Yevdakimov bildirib.

MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev isə Birlik ölkələri dövlət başçılarının növbəti iclasının oktyabrın 14-də Nur-Sultanda keçiriləcəyini açıqlayıb.

*Qeyd edək ki, Qazaxıstan 2022-ci ildən MDB-yə sədrlik edir.*

## Rövşən Nəcəf Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti təyin edilib



**Prezident İlham Əliyev R.Ç.Nəcəfin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti təyin edilməsi haqqında Sərəncam verib.**

Sərəncamla Rövşən Çingiz oğlu Nəcəf Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti təyin edilib.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti Rövşən Çingiz oğlu Nəcəfə həvalə edilir. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

## Koronavirusa yoluxan Hulusi Akarın vəziyyəti stabildir



**Yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxan Türkiyənin milli müdafiə naziri Hulusi Akarın vəziyyəti stabildir.**

APA-nın yerli bürosunun xəbərinə görə, bu barədə NTV hərbi mənbələrə istinadən məlumat yayıb.

*Xəbərdə qeyd olunub ki, xəstəliyi yüngül simptomlarla keçirən nazir yaxın günlərdə, izolyasiya dövrü bitəndən sonra yenidən işə çıxacaq.*

# Erməni mediası yalanlar tirajlayır

### Arutyunyanı Moskvada heç bir rəsmi şəxslər qəbul etməyib



**Qarabağdakı erməni separatçılarının lideri Araik Arutyunyan bu günlərdə Moskvada işgüzar səfərdə olub. Erməni mediasının yazdığına görə, Arutyunyan Moskvada müxtəlif ”rus rəsmiləri” ilə görüşüb.**

Görüşlər zamanı müdafiə, humanitar və digər sahələr üzrə məsələlər müzakirə olunub. Görünən odur ki, Qarabağ separatçıları və onların havadarları açıq-aşkar Moskvada dəstək qazanmağa çalışırlar. Onların nə barədə ”razılaşdıqları” məlum deyil. Qarabağdakı sülhməramlıların fəaliyyəti ilə bağlı narazılıq getdikcə artdığı bir vaxtda separatçıbaşının ”rəsmi” səfəri suallar doğurur. Azərbaycanın Rusiyadakı səfirliyi Arutyunyanın Rusiyanın vəzifəli şəxsləri ilə görüşlər keçirməsinə dair bir sıra erməni KİV-də yayılmış xəbərlərə aydınlıq gətirib. Səfirlikdən qeyd olunub ki, adıçəkilən şəxs Moskvaya şəxsi işləri ilə əlaqədar gedib və bəzi soydaşları ilə görüşüb. Lakin qısamüddətli səfər zamanı Rusiyanın heç bir dövlət qurumunun nümayəndəsi tərəfindən qəbul edilməyib. Səfirlik qeyd edib ki, bu kimi məlumatların erməni mətbuatında yayılması təxribat xarakteri daşıyır və həqiqəti əks etdirmir.

**Millət vəkili, Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə ”Şərq”ə bildirib ki, separatçı Arutyunyanın hansısa ciddi işlərlə məşğul olduğunu söyləmək və onu şişirtmək lazım deyil. Deputatın sözlərinə görə, ümumiyyətlə, bu şəxs medianın gündəmində olmamalıdır:** ”Ermənistanın bir sıra media orqanı onunla bağlı məlumatları məqsədyönlü şəkildə tirajlayır. Arutyunyan ətrafında növbəti şou düzəldirlər. Separatçıların başçısının ”böyük adam” olduğunu göstərmək üçün ağlına gələni yazırlar. Separatçı Arutyunyan Moskvada heç bir rəsmi şəxs tərəfindən qəbul olunmur. O, sadəcə Rusiyaya gəzməyə gedib. Ermənilər isə buna fərqli don geyindirmək istəyirlər. Ancaq əksər erməni və rus mediası artıq Arutyunyanın ”səfərlərinə” ciddi reaksiya vermirlər”.

**İsmayıl Qocayev**



# "İran Zəngəzur dəhlizinə hörmətlə yanaşacaq"

### Səfir: ”Bəziləri imkan versə, Azərbaycanla əməkdaşlığımız digərlərinə nümunə ola biləcək”

**”İran-Azərbaycan əlaqələrində sıçrayış, inkişaf müşahidə edirik”. Bunu İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi Azərbaycan-İran diplomatik münasibətlərinin 30-cu ildönümünə həsr olunmuş mətbuat konfransında deyib. O bildirib ki, İranın xarici siyasəti qonşularla əlaqələrinin inkişafına əsaslanıb. Qonşularla əlaqənin inkişafı bizim xarici siyasətimizin əsas prioritetidir:**

”İranın yeni prezidenti seçildikdən bu günə qədər 3 səfər həyata keçirib, bu səfərlər qonşu və region ölkələrinə olub”. Diplomat xatırladıb ki, Azərbaycan və İran prezidentləri Aşqabadda görüşüb və bu görüş faydalı olub: ”İran prezidentinin Azərbaycan lideri ilə görüşü əlaqələrin inkişafında dönüş nöqtəsi hesab olunur. Şadam ki, həmin görüşdən sonra əlaqələrimizdə sıçrayış, inkişaf müşahidə edirik. Bu inkişaf özünü bütün sahələrdə - siyasi, iqtisadi, təhlükəsizlik sahələrində göstərir. İki ölkə beynəlxalq təşkilatlarda da yaxşı əməkdaşlıq edir, bir-birinin mövqeyini dəstəkləyirlər. Ümidvaram ki, əlaqələrimizin inkişafı belə davam edəcək. Regional səviyyədə əməkdaşlıq, ”3+3” yaxın gələcəkdə bütün region ölkələrinin platformaya qoşulması ilə güclənəcək”.

**”İki ölkənin üstünlüyü odur ki...”**

Səfir bəyan edib ki, Zəngəzur dəhlizi Azərbaycan və Ermənistan arasında olan məsələdir və İran bununla bağlı qərara hörmətlə yanaşacaq. O xatırladıb ki, İran 30 il ərzində Naxçıvan və Azərbaycan arasında əlaqələrin açıq olmasına yardım göstərib və bu yol hələ də açıqdır. Diplomat iranlı nazir Qaseminin bu günlərdə Azərbaycana səfər etdiyini diqqətə çatdırıb və əlavə edib ki, nazir azad olunmuş ərazilərə səfəri zamanı İrana yeni istiqamətin açılması, yolun çəkilməsi ilə bağlı müzakirələr aparıb: ”İki ölkənin üstünlüyü odur ki, nəqliyyat dəhlizləri bu ölkələrdən keçir və biz bu dəhlizləri hər zaman müdafiə edəcəyik”.

**“Azərbaycanın İrana ixracı ötən il 11 faiz artıb”**

Musəvi vurğulayıb ki, Azərbaycan və İran ticarət dövriyyəsini 1 mlrd. dollara çatdırmağı hədəfləyir: ”Azərbaycan və İran arasında ticarət dövriyyəsinin həcmi 400 mln. ABŞ dolları təşkil edir. Bu, rəsmi rəqəmdir. Təbii ki, iki ölkənin vətəndaşlarının gediş-gəlişi var, bu zaman olan dövriyyə hesablanmır”. Səfir qeyd edib ki, iki ölkə arasında ticarət dövriyyəsi ötən il 30 faiz, o cümlədən Azərbaycanın İrana ixracı ötən il 11 faiz artıb: ”Yaxın gələcəkdə iki ölkənin hökumətlərarası komissiyasının iclası keçiriləcək və bu tədbirdə ticarət dövriyyəsinin 1 milyard dollara çatdırılmasını müzakirə edəcəyik. İqtisadi əlaqələrimiz siyasi əlaqələrin yüksək səviyyəsinə çatmayıb, biz bu potensialın olduğunu, ticarət əlaqələrinin yüksəlməsini gözləyirik. Səfir onu da əlavə edib ki, iki ölkə prezidentlərinin qarşılıqlı səfərləri gündəmdədir. Səfərlərin münasib vaxtda həyata keçiriləcəyi bildirilib.

İran səfiri vurğulayıb ki, azad olunmuş torpaqlarda əməkdaşlıq iki ölkə arasında mühüm məsələlərdən biridir: ”Çox şadıq ki, bu torpaqlar azad olunub. Bu ərazilərdə Azərbaycanla 132 km sərhədimiz var. Biz həmin ərazilərdə əməkdaşlığa hazırıq. Bu məsələ Azərbaycan Prezidentinin iranlı rəsmilərlə görüşündə müzakirə olunub. Gözləyirik ki, təcrübəli İran şirkətləri bu torpaqlarda yenidənqurma işlərində iştirak etsinlər”.

Diplomat qeyd edib ki, İranla Azərbaycan arasında iki sərhəd keçid məntəqəsinin açılması gözlənilir: ”Bunlardan biri Xudafərin, digəri isə Parsabaddadır”. Səfir qeyd edib ki, Azərbaycan və İran Araz çayı üzərində su anbarlarının tikintisini başa çatdırıb: ”Araz çayı üzərində su anbarlarının tikintisi başa çatıb, hazırda turbinlərin qurulması mərhələsindəyik. Ümid edirik, onlardan birində tezliklə turbin qurulsun və istifadəyə verilsin. Biz Araz çayının su mənbələrinin birgə istifadəsinin 50 illiyini qeyd etdik. Bəziləri imkan versə, əməkdaşlığımız digərlərinə nümunə ola biləcək”.

**“İran ən böyük narkotik tranziti yolunun üzərində yerləşir”**

Abbas Musəvi bildirib ki, İran dünyanın ən böyük narkotik tranziti yolunun üzərində yerləşir. Onun sözlərinə görə, Əfqanıstanda istehsal olunan narkotik İran yolu qaçaqmalçılar üçün ən yaxın yol hesab olunur: ”Biz bununla mübarizədə işlər görürük, İranda 1000-dən çox polis və təhlükəsizlik qüvvələri şəhid verib. Biz bu bəlanın yayılmasının qarşısını həm İranın daxilində, həm də digər ölkələrdə almağa çalışırıq. Bu kartellər geniş şəbəkəyə malikdir. Onların qarşısını almaq üçün ölkələrin polis və təhlükəsizlik qüvvələri əməkdaşlıq edir”.

**İsmayıl**

## Bakıda baxımsız qalan 2 yaşlı uşaq dövlət nəzarətinə götürülüb

### Anası Belarus vətəndaşıdır, atası isə tüfeyli həyat tərzi sürür



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Bakının Nərimanov rayonunda baxımsız qalan iki yaşlı körpə ilə bağlı yayılan məlumatlara münasibət bildirib.**

Dövlət Komitəsinin mətbuat katibi Teymur Mərdanoğlu ”Report”a bildirib ki, faktla bağlı quruma müraciət daxil olub.

Onun sözlərinə görə, Dövlət Komitəsi də məsələ ilə bağlı Nərimanov Rayon İcra Hakimiyyətinin Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya, eyni zamanda Daxili İşlər Nazirliyinə müraciət edib.

Bundan sonra uşağın yaşadığı ünvana baş çəkilib. Məlum olub ki, uşağın anası Belarus vətəndaşıdır, atası isə tüfeyli həyat tərzi sürür. Bu səbəbdən uşaq oradan götürülüb və müvəqqəti olaraq sığınacağa yerləşdirilib. Həmçinin azyaşlı dövlətin nəzarətinə götürülüb. Hazırda körpənin müayinələrinə başlanılıb.

# Moldova özünü Rusiya təhlükəsindən qorumağa çalışır

### Kişinyov Azərbaycanın, eləcə də Türkiyənin imkanlarından faydalana bilər

**Fevralın 10-da Prezident İlham Əliyev ölkəmizdə rəsmi səfərdə olan Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropaya İnteqrasiya naziri Niku Popeskunu qəbul edib. Görüş zamanı dövlət başçısı ötən ilin dekabrında Moldova Prezidenti Maya Sandu ilə Brüsseldə keçirdiyi görüşü məmnunluqla xatırlayıb.**

O, iki ölkə arasında əməkdaşlığın hərtərəfli inkişafı üçün böyük potensialın olduğunu vurğulayıb. N.Popesku isə ölkələrimiz arasında diplomatik münasibətlərin artıq 30 ilə yaxın davam etdiyi və bu müddət ərzində Azərbaycan və Moldovanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini diqqətə çatdırıb.

**Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli Moldova-Azərbaycan münasibətlərindən ”Şərq”ə bildirib ki, bu münasibətlərdə qəribə detallar var:** ”Moldova bizim müstəqilliyimizi ilk tanıyan ölkələrdən biridir, Azərbaycanı



beynəlxalq təşkilatlarda dəstəkləyib, ərazi bütövlüyünü tanıyıb. İki ölkə arasında təxminən 5-10 milyon dollar civarında ümumticarət dövriyyəsi var. İndi o çalışır ki, dünyanın üzərində mübarizə apardığı enerji təhlükəsizliyini ölkəmiz hesabına təmin etsin. Bu baxımdan Azərbaycana xüsusi bir marağı yaranıb”.

**Ə.Əlibəylinin fikrincə, Moldovanın iki ölkə arasında münasibətləri daha da dərinləşdirməyə çalışması bir yandan da hərbi və siyasi təhlükəsizliklə bağlıdır:**

”Çünki Moldova region olaraq Rumıniya və Ukrayna arasında yerləşir. Qara dənizə yaxın ölkədir. Bu bölgə hazırda NATO ilə Rusiya arasında Ukrayna üzərində toqquşmanın baş verdiyi bir nöqtədir. Azərbaycanın bu hərbi qarşıdurmaları idarə etmək kimi bir təcrübəsi var. Biz Rusiya, İran, Türkiyə arasında, o cümlədən, bir çox ölkələrin güc mərkəzləri ilə toqquşduğu bir bölgə kimi kifayət qədər nüfuz qazanmışıq”.

**Ekspertin qənaətincə, Ukraynada hərbi əməliyyatlar baş verərsə, ayaq altında qalan ölkələrdən biri də Moldova olacaq:**

”Rusiyanın bu ölkə ilə bağlı planları mövcuddur. Bu baxımdan da rəsmi Kişinyov hesab edir ki, Rusiya ilə münasibətdə Azərbaycanın, eləcə də Türkiyənin nüfuzundan, imkanlarından real şəkildə faydalana bilər. Çünki NATO üzvü olan Rumıniya və Bolqarıstan kimi qonşu ölkələrin Rusiya tərəfindən cəzalandırılması fonunda Moldovanın da aqibəti yaxşı görünmür. O indi bütün bunları nəzərə alaraq Azərbaycanla münasibətə xüsusi önəm verir”.

**Günəş Mərd**



# Ankara İrəvana heç bir güzəştə getməyəcək

## Fundamental məqamlar həllini tapmayanadək normallaşmadan danışmaq yersizdir

İsmayıl Qocayev

**Türkiyə və Ermənistanın xüsusi nümayəndələrinin növbəti görüşü fevralın 24-də Avstriyanın paytaxtı Vyanada baş tutacaq. Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan deyib ki, İrəvan tərəfi Vyanadakı görüşdə Türkiyə və Ermənistan arasında diplomatik münasibətlərin qurulması, həmçinin sərhədlərin açılması məsələlərinin müzakirəsini gözləyir.**

Onun sözlərinə görə, Antalyada keçiriləcək forumda iştirak məsələsi daha çox İrəvan və Ankaranın xüsusi nümayəndələrinin Vyanada apardıqları danışıqların nəticəsindən asılıdır. Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, Ermənistanla normallaşma prosesi Azərbaycanda narahatlıq yaratmır. Nazirin sözlərinə görə, əksinə, Azərbaycan Türkiyənin Ermənistanla münasibətlərinin normallaşması prosesini dəstəkləyir: "Onsuz da Azərbaycanla məsləhətləşmədən, koordinasiya etmədən biz hər hansı addım atmamışıq, atmayacağıq da. Azərbaycan da bizim Ermənistanla birbaşa təmaslarda olmağımızı seçir. Bəzi məsələləri birbaşa təmaslarla müzakirə etməyimiz lazımdır. Cənubi Qafqazda olan problem Azərbaycanın Qarabağ zəfəri ilə başa çatdı. Bundan sonra bölgədə sülhə nail olmaq lazımdır, əməkdaşlıq olmalıdır. Bölgədə əhəmiyyətli layihələri həyata keçirərək bölgənin iqtisadi cəhətdən yüksəlməsi üçün fəaliyyət göstərməliyik. Bunun üçün də bütün ölkələr eyni düşüncədə olmalıdır. Bölgədə yaranan fürsətləri yaxşı dəyərləndirmək lazımdır. Biz savaşdan dərhal sonra müsbət mesajlar verdik. Ermənistan dərs alarsa, bölgənin sabitliyi üçün addımlar atarıq, münasibətləri normallaşdırarıq".

**Türkiyə-Ermənistan münasibətləri ilə bağlı fikirlərini "Şərq"lə bölüşən Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlu deyib ki, İrəvanın addımları onun normallaşma prosesinə hazır olmadığını göstərir. Partiya sədrinin sözlərinə görə, Ankara-İrəvan arasında gedən müzakirələr, atılan müəyyən addımlar cari məsələlərdir:** "Prinsipial məsələlər həllini gözləyir. Ermənistan Türkiyəyə qarşı ərazi iddialarından rəsmən vaz keçməyib. Həmçinin, Ağrı dağının əks olunduğu gerbini də dəyişməyib. Eyni zamanda qondarma "erməni soyqırımı" məsələsi də gündəmdən çıxmayıb. Hazırda Türkiyə-Ermənistan münasibətləri hava nəqliyyatındakı "çarter reyslərə" bənzəyir. Belə görüşlər uzun müddət davam edəcək. Ermənilər türklərə qarşı düşmənçilikdən əl çəkə bilmirlər. Ona görə də Türkiyə erməni tərəfində güzəştə getmir. Yəni fundamental məqamlar həllini tapmayanadək normallaşmadan danışmaq yersizdir".

# Rövnəq Abdullayevin getməsi SOCAR-ı tənəzzüldən qurtaracaqmı?

**Rəşad Hüseynov:**
"Bizdə şəxslər prosesin gedişinə, işin təşkilinə öz təsirini göstərə bilir"



**Rövnəq İbrahim oğlu Abdullayev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti vəzifəsindən azad edilib.**

Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Ölkə başçısının digər sərəncamı ilə Rövnəq Abdullayev iqtisadiyyat nazirinin müavini təyin olunub.

**Baş verən kadr dəyişikliyinin səbəbləri və gələcəyi ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Rəşad Həsənov qeyd edib ki, SOCAR-ın səmərəsiz fəaliyyəti ilə bağlı həm cəmiyyətdə, həm də hökumətdə ciddi narahatlıqlar var idi.**

Uzun müddətdir təəccüb doğururdu ki, nə üçün bu istiqamətdə konkret addımlar atılmır. Faktiki olaraq, dövlət bu müəssisənin fəaliyyətindən çox böyük gəlir itkiləri ilə üzləşilirdi. Çünki həm müəssisənin fəaliyyəti qeyri-səmərəli təşkil olunub, həm də çox böyük korrupsiyalaşma var. Bu baxımdan qərar gözlənilən idi və baş verməsi çox yaxşı hal olaraq qiymətləndirilir. Bu istiqamətdə dəyişikliklər olmalıdır.

Qurumun bundan sonrakı fəaliyyətinin necə olacağı barədə danışan ekspert indiki halda dəqiq nə isə deməyin çətin olduğunu bildirib:

"Çünki həm investisiya holdinqinin, həm də yeni idarəetmənin necə təşkil olunacağı, burada kimin təmsil olunacağı önəmlidir. Bizdə şəxslər prosesin gedişinə, işin təşkilinə öz təsirini göstərə bilir. Amma əhəmiyyətli dərəcədə deyil. Əsas məsələ odur ki, SOCAR-la bağlı siyasi baxış necə olacaq. Onun səmərəli şəkildə fəaliyyət göstərən dünya brendinə çevrilməsi istiqamətində işlər görüləcəkmi? Şirkətin fəaliyyətində dövlətin mənfəətinin və əhalinin sosial rifahının artması, yoxsa hansısa sosial qrupların, oliqarxların yararlanması mövqeyi ortaya qoyulacaq? Bu çox vacib məsələdir. Əgər səmimi yanaşma olacaqsa, təyinatlar da buna uyğun ediləcək.

Neft şirkətinin fəaliyyətində kifayət qədər böyük açıqlar var. Bunların aradan qaldırılması gələcəkdə Azərbaycan iqtisadiyyatı və şirkətin özünün gələcəyi baxımından müsbət imkanlar yarada bilər".

**Sənan İsmayıl**

# Ter-Petrosyanın dedikləri gerçəkləşir

## Paşinyan xalqı tədricən sülhə hazırlamağa məcburdur



**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında fevralın 4-də Azərbaycan prezidenti, Fransa, Avropa İttifaqı Şurasının prezidentinin və Ermənistan baş nazirinin iştirakı ilə keçirilən görüşə diqqət çəkib.**

O bildirib ki, bu toplantıda Ermənistanın Baş naziri humanitar məsələlərdə əməkdaşlıq etməyə vəd verib. Fevralın 9-da isə Ermənistanın baş naziri Nikol Paşinyansa parlamentdə hökumət saatı zamanı İrəvanın Bakı ilə avtomobil və dəmir yolu əlaqəsini açmağa hazır olduğunu deyib: "Azərbaycandan müsbət cavab aldıqdan sonra biz avtomobil yolları marşrutlarının inşası və bərpası prosesini həyata keçirməyə hazırıq. Dəmir yolu ölkələrin qanunları və suverenliyi çərçivəsində beynəlxalq qaydalara uyğun fəaliyyət göstərməli, bu yolların birləşdirilməsi üçün parametrlərin razılaşdırılması zəruridir".



**Tofiq Abbasov:**
"Artıq Nikolun atdığı addımlar Ermənistanın beynəlxalq müstəvidə heç bir dəstəyə malik olmadığını göstərir"

**Məsələyə münasibət bildirən politoloq Tofiq Abbasov "Şərq"ə söyləyib ki, Ermənistanın proseslərə münasibətini nəzərdən keçirdikdə mütləq onun daxili vəziyyətini diqqətdə saxlamalıyıq:**

"İndi Ermənistan cəmiyyəti ictimai, siyasi, humanitar və s. bütün sahələrdə böhran yaşayır. Orda heç bir sahədə stabil vəziyyət yoxdur. Paşinyan indi misqal-misqal mesajlarını açıqlayır. Bu, ilk növbədə onun ölkə daxilindəki abhavanı nəzərə alması ilə bağlıdır".

**T.Abbasov Azərbaycanın 7 fevral 2022-ci il tarixdə 8 nəfər ermənini Ermənistana təhvil verməsinə diqqət çəkib:**

"Rəsmi Bakı böyük bir alicənab addım ataraq səkkiz nəfər erməni cinayətkarını Ermənistana təhvil verdi. Onlar isə buna müsbət münasibət bildirmək əvəzinə söylədilər ki, Azərbaycan bütün cinayətkarları qaytarmalıdır. Bu, Ermənistanın daxili vəziyyətinin son dərəcə mürəkkəb olduğunu göstərir. Düzdür, indi ordakı küçələrə bir az sakitlik hökm sürür. Amma bu o demək deyil ki, hər şey qaydasındadır. Müxtəlif cinayətkar qruplar istənilən vaxt bu sakitliyi poza bilərlər. Onların da başlıca məqsədi Paşinyanı devirməkdir".

Politoloqun fikrincə, Paşinyan hazırda böyük mesajlar səsləndirə bilmir, öz xalqını öyrəşdirə-öyrəşdirə ona sülhdən başqa çıxış yolu olmadığını deyir:

"Artıq Nikolun atdığı addımlar Ermənistanın beynəlxalq müstəvidə heç bir dəstəyə malik olmadığını göstərir. Hazırda onların birinci prezidenti Levon Ter-Petrosyanın dedikləri gerçəkləşir. O demişdi ki, biz Qarabağ məsələsində Azərbaycana iddia irəli sürmək mövzusunda beynəlxalq səviyyədə heç vaxt özümüzə tərəfdar qazana bilməyəcəyik. Çünki biz bu işdə hər zaman qanundan kənar işlərə yaşıl işıq yandırmışıq". Gec də olsa Ermənistan rəhbərliyi yavaş-yavaş bunu anlayır".

**T.Abbasov düşünür ki, bir çox hallarda Paşinyana naşı, təcrübəsiz desələr də, o elə deyil. Nikol işini çox yaxşı bilir:**

"O, ölkə daxilindəki şəraiti öz xalqına aram-aram elan etmək lazım olduğunu çox gözəl bilir. Anlayır ki, bundan sonra inqilabi yolla nəsə əldə edilməyəcək və bu məsələlər ancaq təkamül yolu ilə həllini tapacaq".

**Günəş Mərd**

# Namərdlikləri davam edir

## Ermənistana etibar etmək doğru deyil

"Əvvəl istədiklərimizi almalıyıq, sonra qarşılıq verməliyik"



**Az qala 30 ildir Azərbaycan Birinci Qarabağ müharibəsində əsir və girov götürülmüş, itkin düşmüş əsgərlərinin taleyindən bir xəbər ala bilmir. Elə ailələr var ki, bu günə qədər itkin yaxını haqqında məlumatı yoxdur, anaların hələ də gözü yoldadır.**

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində, Birinci Qarabağ müharibəsində 3890 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Dövlət Komissiyasının statistikasına görə, onlardan 3 171 nəfəri hərbçi, 719 nəfəri mülki şəxslərdir. Mülki şəxslərdən 71 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 267 nəfəri qadın, 326 nəfəri isə qocadır. İtkin düşən şəxslərin ümumi sayından 872 nəfər, o cümlədən 29 uşaq, 98 qadın və 112 qoca əsir-girov götürülüb və ya işğal edilən ərazilərdə qalıblar.

Lakin həmin şəxslərin sonrakı taleyi ilə bağlı məlumat yoxdur.

Xarici işlər naziri (XİN) Ceyhun Bayramov mövzu ilə bağlı açıqlama verib.

Onun sözlərinə görə, əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və XİN bu illər ərzində əsir və girovlarla bağlı davamlı fəaliyyət göstərib, Azərbaycan bütün mümkün beynəlxalq platformalarda bu məsələni qaldırır.

Ceyhun Bayramov deyib ki, Ermənistanın hansı beynəlxalq humanitar hüquq normalarını pozduğu göstərilməklə, BMT və onun müxtəlif agentlikləri, ümumiyyətlə, bütün beynəlxalq təsisatlarda bu məsələlər qaldırılır:

"Azərbaycan 44 günlük Vətən müharibəsi başa çatandan sonra həm Beynəlxalq Qızıl Xaç Komitəsi, həm Rusiya, həm Ermənistan hərbçiləri ilə bu istiqamətdə əlaqələr yaratdı, birgə fəaliyyət apardı. Bu fəaliyyət nəticəsində 1709 erməni hərbçisinin cəsədi tapılaraq qarşı tərəfə təhvil verildi. Hərbi əməliyyatlar 2020-ci ilin noyabr ayında bitib, sonrakı qış aylarında, ağır şəraitdə, dağlarda, minalanmış ərazilərdə bu fəaliyyət həyata keçirilib. Azərbaycan hərbçiləri də bu işlərdə iştirak edib. Ancaq 30 il keçəndən sonra Ermənistan tərəfindən bu istiqamətdə hansısa tədbirlər görülmür və buna bir don geyindirilir".

**Ermənilərin əsir və itkin, girov götürülmüş şəxslərə yanaşması barədə "Şərq"ə danışan millət vəkili Elman Məmmədov bildirib ki, erməni olmaqları hər şeydən xəbər verir, bu bir xəstəlikdir:**

"Onlar bütün tarix boyu heç bir sövdələşmədə, münasibətdə, əlaqədə səmimi olmayıblar. Bu gün də qeyri-səmimiliyi, xəyanətkarlığı, namərdlikləri davam edir. Onlar sözdə razılaşırlar, istədiklərini əldə edirlər. Sonra öhdəliklərini yerinə yetirmirlər. Minalanmış sahələrin xəritələrin verilməsində, əsirlərin dəyişdirilməsində, sərhəd və Zəngəzur dəhlizi məsələsində də özünü göstərir. Ermənistana etibar etmək doğru deyil. Razılaşma vaxtı qabaqcadan nəyisə verməməliyik, almalıyıq, ardınca qarşılıqlı reallaşdırmalıyıq. Erməni cığallığı tarix boyu təsdiqini tapıb.

Nəsə almaq üçün danışıqlar yolu, xoşluq işə yaramır. Yalnız məcburiyyət qarşısında qoyub nəsə almaq mümkündür. 44 günlük müharibədə və bitdikdən sonra da belə oldu. Bütün məsələlərdə belə üsul tətbiq edilməlidir. "Sən bunu etməlisən!".

Şərtlə danışıqla mümkün deyil. Əgər alınsaydı, 30 il ərzində aparılan danışıqlar uğurla nəticələnərdi. Heç nəyə nail ola bilmədik.

"Dəmir yumruq" işə düşən kimi Azərbaycan əsgəri sözünü deməyə başladı, sülhə məcburetmə metodu ilə istədiklərimizi gerçəkləşdirdik.

Erməniyə güc göstərməliyik. Onlar güc görməsə, heç vaxt deyiləni icra etmirlər".

**Aygün Tahir**

# Səbrimizi sınağa çəkirlər

## Sülhməramlıların seyrçi mövqeyi Azərbaycan cəmiyyətində ciddi narazılıq doğurur



**Son günlər sülhməramlıların nəzarətindəki ərazilərimizdə separatçıların təxribatlarının davamlı xarakter aldığı müşahidə olunur. Tərtərin atəşə tutulması, Xocalıda aktiv tikintinin aparılması, Transeylərin qazılması, "Bakcell"in əməkdaşının güllələnməsi, separatçıların davamlı təxribatçı bəyanatlar səsləndirməsi, "Artsaxın işğalı haqqında" qanun layihəsinin hazırlanması barədə fikirlər və digər təxribat əməlləri bu fikri bir daha təsdiq edir.**

**Millət vəkili Ceyhun Məmmədov "Şərq"ə bildirib ki, sülhməramlıların erməni təxribatlarına seyrçi qalması, reaksiya verməməsi, bir sıra hallarda dəstəkləməsi haqlı olaraq Azərbaycan cəmiyyətində ciddi narazılıq doğurur.**

Deputatın sözlərinə görə, sülhməramlıların əsas missiyası atəşkəsə əməl edilməsinə nəzarət etmək, bölgə xalqları arasında sülhü, qarşılıqlı etimadı, birgə yaşayışı təmin etməkdir: "Təəssüf ki, sülhməramlıların bu məsələlərlə bağlı hansısa ciddi addımlar atdıqları müşahidə olunmur. Əksinə, onların başları burada humanitar aksiyalara qarışıb. Bir gün məktəb, ev tikintisi həyata keçirir, su daşıyır, ərzaq paylayır, o biri gün məktəblərdə şagirdlərlə görüşlər keçirirlər. Ermənilər də bundan istifadə edərək öz xəbis və məkrli niyyətlərini həyata keçirməyə davam edir, yeni təxribatlar törətməyə çalışırlar. Bu təxribatlara mütləq son qoyulmalıdır. Separatçılar unutmasınlar ki, dəmir yumruq hər zaman hazırdır. Əgər belə təxribatlar davam etsə bunun cavabı çox sərt və ağır olacaq. Azərbaycan bölgəyə davamlı sülhün gəlməsinə çalışır, bütün addımlar buna hesablanıb. Bölgənin inkişafı davamlı sülhdən çox asılıdır. Ermənistan konkret mövqe bildirməlidir. Əgər sülh istəyirsə Azərbaycan sülhə hazırdır. Yox, məqsəd müharibə, Azərbaycanın səbrini sınağa çəkməkdirsə Azərbaycan müharibəyə hazırdır. Ancaq bunun aqibəti ermənilər üçün heç yaxşı olmayacaq".

**Parlament üzvü əlavə edib ki, erməni xalqı hələ də unutqanlıq xəstəliyindən sağalmayıb:** "Başlarına gələnləri çox tez unudurlar. Ermənilər Vətən müharibəsində öz çirkin əməlləri ucbatından yaşadıqları acı müsibətlərdən çox ciddi nəticələr çıxarmalıdırlar. Nə qədər gec deyil, separatçılar bu barədə ciddi düşünməlidir. Onların bir yolu var, o da sülhə razılaşmaq və yekun müqaviləni imzalamaqdır. Digər bütün cəhdlərin nəticəsi uğursuz və ağır olacaq. Heç kim Azərbaycanın səbrini zorlamağa cəhd etməsin".

**İsmayıl Qocayev**



# Qış tətilinin uzadılmasının mümkün olan, olmayan tərəfləri var

## Təhsil eksperti ali məktəblərə nisbətən orta məktəblərdə təhlükəli vəziyyətdən danışıb

**Azərbaycanda ali məktəblərdə qış tətilinin müddətinin uzadılması təklif edilib.**

**Bu təkliflə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev çıxış edib.**

**O bildirib ki, koronavirusun ”Omikron” ştammının epidemiyası ölkəmizdə bir aydan artıqdır ki, davam edir və yoluxma pik həddinə çatmaqdadır:**

”Omikron” ştammı yüngül klinik əlamətlərlə, az ağırlaşma ilə müşahidə olunsa da, yüksək yoluxuculuq xassəsi ilə fərqlənir, remissiya dövrü qısadır, az vaxtda çoxlu sayda insanların yoluxmasına səbəb olduğundan iş və tədris rejiminin pozulmasına səbəb olur. Buna görə də ”Omikron” infeksiyasının geniş yayılmasının qarşısının alınması dünyada sərt lokdaunla deyil, lokal qapanmalarla daha effektiv hesab edilir. Azərbaycanda belə lokal qapanmaları ayrı-ayrı orta məktəblərdə, siniflərdə və uşaq bağçalarında görürük.

Ali məktəblərdə qış tətili fevralın 15-də bitir. Yeni təhsil sessiyasının başlanması ”Omikron” ştammı epidemiyasının pik dövrünə təsadüf etdiyindən gələn həftələr içərisində yeni alovlanma ilə qarşılanma təhlükəsi yox deyil. Bir qrupda, fakültədə, kursda onlarla tələbənin və müəllimin yoluxma ehtimalı olduqca yüksəkdir. Hər yoluxan şəxsin və onunla yaxın təmasda olanların azı 1 həftəlik izolyasiyası əyani təhsil prosesinin bir çox universitet və kolleclərdə pozulmasına səbəb olacaq, üstəlik, infeksiya auditoriyalardan evlərə daşınacaq. Bunun dərman, müalicə xərclərini, bərpa dövründə tələbənin təhsilalma keyfiyyətinin də aşağı düşəcəyi ehtimallarını nəzərə alanda qarşılaşacağımız çətinliyin miqyasının daha da böyüyə biləcəyini söyləmək mümkündür. Yuxarıda qeyd edilənləri nəzərə alaraq təklif edirəm ki, təhsil müəssisələrində qış tətiinin müddəti 7-10 gün uzadılsın, yaxud yaz sessiyasının dərsləri fevral ayının sonuna kimi yalnız onlayn qaydada keçirilsin. Lazımi lokal qapanma, vaksinasiya və qorunma tədbirlərini həyata keçirməklə yaxın 10-15 gündə ”Omikron”un yoluxma intensivliyinin enişini müşahidə edə biləcəyik”.

**Kamran Əsədov:**
“Orta məktəblərdə vəziyyət daha fərqlidir. Şagirdlərin virusu ailə üzvlərinə yoluxdurma riski var”

**Deputatın təklifini dəyərləndirən təhsil eksperti Kamran Əsədov ”Şərq”ə açıqlamasında orta məktəblərlə ali təhsil müəssisələrindəki vəziyyəti müqayisəli təhlil edib. O bildirib ki, ali təhsil müəssisələri üçün vəziyyət təhlükəli deyil:**

”İlk növbədə qeyd edim ki, hazırda ölkənin 51 ali təhsil müəssisəsində 187 min tələbə, eyni zamanda 54 orta təhsil ixtisas müəssisəsində 56 min tələbə təhsil alır. Birmənalı şəkildə bu qədər insanın birdən-birə aktiv hərəkət etməsi təbii ki, yoluxma sayına öz təsirini göstərəcək. Amma ali və orta təhsil müəssisələrində vəziyyət o qədər də təhlükəli deyil. Ona görə ki, orta məktəblərlə müqayisədə burada say azdır. Bizim orta məktəblərimizdə 1.6 milyon şagird təhsil alır. Rəqəmləri müqayisə etdikdə görürük ki, ali məktəblərdə rəqəmlər orta məktəbdəki rəqəmlərdən 10 dəfə azdır. Bundan başqa, ali məktəblərdə təhsil alan tələbələr daha anlayışlı şəxslərdir. Onlar pandemiya dövrünün qaydalarına daha yaxşı əməl edə bilirlər. Bundan başqa tələbələrin böyük əksəriyyəti öz evlərində yaşamır, yəni onlar yoluxsalar belə, potensial yoluxucu qismində olmurlar. Orta məktəblərdə vəziyyət daha fərqlidir. Şagirdlərin virusu ailə üzvlərinə yoluxdurma riski var. Bundan başqa biz 2021-ci ilin 22 sentyabrında  orta məktəblərdə, 29 sentyabrında ali məktəblərdə dərslər açılandan sonra yoluxma rəqəmlərinin müqayisəsi zamanı gördük ki, ali məktəblərdə vəziyyət o qədər də təhlükəli deyil. Ən maksimum tələbə sayına malik ali məktəblər Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət İqtisad Universitetidir. Burada 20 min tələbə təhsil alırsa, infrastruktur daha yaxşıdır. Xüsusilə, BDU tələbələrin normal təhsil alması, eyni zamanda pandemiya dövründə tədrisin təşkili üçün bütün imkanları qura bilib. Eyni zamanda, BDU, universitetin girişində tələbələri insan olmadan təmassız halda quraşdırdığı avadanlıqlarla yoxlaya bilir”.

**Təhsil eksperti vurğulayıb ki, universitetlərdə distant formaya keçidin, yaxud tətilin uzadılmasına ehtiyac yoxdur:**

”Digər tərəfdən Təhsil Nazirliyi qeyd edirdi ki, biz akademik gecikmənin qarşısını almaqdan ötrü ali məktəblərdə tələbələrin köçürülməsini dayandırmışıq. Bunu nəzərə alsaq, düşünmürəm ki, ali məktəblərdə dərslər bir-iki həftə yubanmalıdır, yaxud distant formaya keçid etməlidir. Buna ehtiyac yoxdur. Hazırda ali təhsil müəssisələri təhlükəli yoluxma rəqəmləri ortaya qoymurlar. Əgər orta məktəblərdə 150 min müəllim çalışırsa, ali təhsil müəssisələrində çalışan müəllimlərin sayı bundan dəfələrlə azdır.  Cəmi 40 min müəllim ali və orta ixtisas təhsil müəssisələrində çalışır”.

**K.Əsədov qeyd edib ki, bizim üçün ən ciddi problem bu məsələnin orta təhsil məktəblərindəki həllidir:**

”Tələbələr yanvar ayının sonundan etibarən evdədirlər, itirdikləri enerjini bərpa ediblər. Ali təhsil müəssisələrində qırılma nöqtəsi var. Bu müəssisələr hətta pandemiyanın ən sərt dövründə belə yoluxma üçün təhlükə mənbəyi deyildi. Bundan başqa ali təhsil müəssisələri dərslərini onsuz da hibrid formada həyata keçirirdilər. Tam şəkildə tədris bərpa edilməmişdi - seminar dərsləri ənənəvi, mühazirələr onlayn idi. Bu, ali təhsil müəssisələrində hər hansısa bir qapanmaya əsas vermir. Təbii ki, yoluxma sayı kifayət qədər çoxdur. Ali təhsil müəssisələrinin yoluxma rəqəmlərində faizi çox cüzidir. Bizim üçün ən ciddi problem bu məsələnin orta təhsil məktəblərindəki həllidir. Düşünürəm ki, yoluxanlar arasında orta məktəb şagirdlərinin və müəllimlərin daha çox paya sahib olduğunu bilirik. Çünki burada daha kütləvi təhsil var. Hazırda 4.432 məktəb var, amma cəmi 51 universitet var. Bu rəqəmlər onu göstərir ki, orta məktəblər yoluxma sayında daha aktiv fazada iştirak edirlər”.

**Çimnaz Şahlar**

# Kəlbəcərdə atəş səsləri...

## Ermənilərin Qarabağ bölgəsində törətdiyi insidentlər intensiv hal alır



“Qarşı tərəf üçtərəfli bəyannamələrin şərtlərinə əməl etmək niyyətində olmadıqlarını hər addımda göstərirlər”

**Ermənistan Kəlbəcər istiqamətində atəşkəsi yenidən pozub.**

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsində yerləşən mövqelərimizi atıcı silahlardan atəşə tutub. Bölmələrimizin cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub. Xatırladaq ki, fevralın 6-da Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsi tərəfindən Tərtər rayonunun Qapanlı kəndi atəşə məruz qalmışdı. Mülki əhali və bölmələrimizin şəxsi heyəti arasında xəsarət alan olmasa da, evlərə ziyan dəymişdi.

**”Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları” Mərkəzinin sədri, politoloq Samir Hümbətov ”Şərq”ə deyib ki, Ermənistanın Azərbaycanla sərhəddə, yaxud rus ”sülhməramlıları”nın müvəqqəti nəzarət etdiyi Qarabağ bölgəsində yaratdığı insidentlər intensiv hal almaqdadır.** Analitikin sözlərinə görə, Rusiya və Ermənistan üçtərəfli bəyannamələrin şərtlərinə əməl etmək niyyətində olmadıqlarını hər addımda göstərirlər: ”Rusiya və Avropa Birliyinin vasitəçiliyi ilə Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında görüş baş tutsa, razılıqlar əldə edilsə də, İrəvanın qətiyyətsiz mövqeyi ucbatından nəticəsiz qalıb. Bütün razılaşmalar Ermənistan tərəfindən pozulub. Azərbaycan tərəfi erməni terrorçu diversantlarının böyük hissəsini qaytarmasına baxmayaraq, Ermənistan Azərbaycanın tələblərini yerinə yetirmək niyyətində olduğunu göstərmir. Ermənistan kimə və nəyə güvənərək bu addımları atır? Görünən odur ki, Qarabağ bölgəsində ”sülhməramlı” fəaliyyət həyata keçirənlər və Qərbin münaqişədə maraqlı olan dairələri Ermənistan vasitəsi ilə pərdəarxası oyun oynayırlar. Məhz buna görədir ki, erməni silahlı terrorçuları hələ də Qarabağ bölgəsindən çıxarılmır. Hadisələrin gedişindən belə qənaətə gəlmək olar ki, həm Rusiya, həm də Qərb ölkələri ermənilərin əli ilə müxtəlif formalı manipulyasiyalar etməkdə maraqlıdırlar. Ona görə də Ermənistanın əldə edilən razılaşmalardan boyun qaçırması bundan sonra da ehtimal edilə bilər. Fikrimcə, bu məsələ indiki halda bizim üçün o dərəcədə əlverişli olmasa da, 5 ilin tamamında əlimizi gücləndirməyə ciddi dəstək ola bilər”.

**İsmayıl Qocayev**



# 3 mindən çox itkinimiz hərbçi yox, mülki insanlar olub

## Ermənistan tərəfi onların taleyinə aydınlıq gətirməyə borcludur

**Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentdə çıxışı zamanı Birinci Qarabağ müharibəsində itkin düşmüş Azərbaycan vətəndaşlarının taleyindən danışıb. Baş nazir iddia edib ki, son bir il ərzində Qarabağ müharibəsində itkin düşmüş 108 nəfərin qalıqları Azərbaycana təhvil verilib.**

Paşinyan yaxın günlərdə daha 2 meyitin qalığının verilməsinə hazırlıq getdiyini söyləyib. Azərbaycan Xarici İşlər Nazirliyi Paşinyanın azərbaycanlı itkinlərin qalıqlarının verilməsi ilə bağlı açıqlamasına münasibət bildirib. XİN-in mətbuat katibi Leyla Abdullayeva bildirib ki, 30 ildən sonra itkin düşmüş minlərlə azərbaycanlıdan cəmi 108 nəfərin qalıqlarının verilməsinin səbəbləri sırasında dəlillərin beynəlxalq ictimaiyyətə təqdim edilməsi yer alır. Nazirlik rəsmisinin sözlərinə görə, Azərbaycan 44 günlük müharibədən dərhal sonra heç bir qarşılıq gözləmədən 1700-dən çox erməni hərbçisinin cəsədini humanizm prinsiplərindən çıxış edərək qarşı tərəfə təhvil verib: ”Maraqlıdır ki, hələ birinci Ermənistan-Azərbaycan müharibəsində itkin düşmüş 4000-ə yaxın azərbaycanlı barədə hər hansı məlumatı təqdim etmək üçün Ermənistanın 30 il gözləməyinin səbəbi nə olub? Azərbaycan tərəfi itkin düşmüş şəxslərlə bağlı məsələni prioritet olaraq gündəlikdə saxlayır. Hələ də taleyi barədə məlumat olmayan 3700 dən çox azərbaycanlı var. Ermənistan tərəfinin növbəti 30 il susqunluğuna icazə verməyəcəyik”.

**İrəvanın itkinlərimizlə bağlı mövqeyini ”Şərq”ə dəyərləndirən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, əgər Paşinyan Kəlbəcərdəki Ballıqayada, yaxud Hadrutdakı kütləvi məzarlıqlardan çıxan cəsədlərdən danışırsa, bunu Azərbaycan əsgərləri axtarış nəticəsində üzə çıxarıb. Professorun sözlərinə görə, erməni tərəfi rəsmi Bakıya kütləvi məzarlıqlarla bağlı heç bir məlumat verməyib:** ”Azərbaycan Ermənistana təhvil verdiyi erməni hərbçilərinin cəsəd qalıqları ilə bağlı mütəmadi informasiya yayır. Cəsəd qalıqları Ermənistana erməni hərbçilər tərəfindən daşınır. Əfsuslar olsun ki, Rusiya sülhməramlılarının nəzarətində olan bölgədə axtarış həyata keçirməyə imkan yaradılmır. Əminəm ki, həmin ərazilərdə də kütləvi məzarlıqlar çıxacaq. 4000 nəfərə yaxın itkin düşmüş vətəndaşlarla bağlı müvafiq qurumlarda bütün rəsmi məlumatlar var. Hətta onların ailə üzvlərindən DNT analizləri götürülüb ki, gələcəkdə itkinlərin kimliyini müəyyənləşdirmək mümkün olsun. 3000-dən çox itkinimiz isə hərbçi yox, mülki, silahsız insanlar olublar. Cenevrə Konvensiyasına görə, yaşlı, qadın, uşaq demədən bu qədər insanın qətli soyqırım adlanır”.

**C.Nuriyev diqqətə çatdırıb ki, əlimizdə kifayət qədər fakt, dəlil-sübut olduğu üçün dövlət başçısı İlham Əliyev Ermənistan rəhbərliyi qarşısında konkret məsələ qaldırıb**: ”Məsələ birbaşa Paşinyanın öhdəsində olsaydı, böyük ehtimal yubatmadan həll edərdi. Baş nazirə daxildə və xaricdə çoxsaylı təzyiqlər var. Rusiya, İran, erməni kilsəsi və diasporası, daxildəki revanşist qüvvələr Paşinyana qarşı birləşib. Meydanda tək qalan baş nazir ara-sıra absurd açıqlamalar verməyə məcbur qalır. Ümumən, Paşinyanın seçdiyi yol düzgündür. Mart ayında Türkiyəyə səfər edəcək və Prezident R.T.Ərdoğanla görüşəcək. Şübhə etmirəm ki, cənab Ərdoğanla Paşinyan arasında təmas olarsa və müəyyən müzakirələr aparılarsa, ilk onluqda itkin vətəndaşlarımız da yer alacaq. Siyasətin mühüm elementlərindən biri də səbr etmək, tələsməməkdir. Gec-tez İrəvan hökuməti rəsmi Bakının tələblərini yerinə yetirəcək”.

**İsmayıl Qocayev**

# Saray sakinləri dözülməz vəziyyətdə yaşayırlar

## 400-dən çox qəsəbə sakini dövlət başçısından və Birinci vitse-prezidentdən kömək istəyirlər

**İllərdir çirkab sularının əhatəsində əlacsız qalan paytaxtın Abşeron rayonu, Saray qəsəbəsinin sakinləri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevə və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevaya müraciət edib.**



Müraciəti qəsəbənin 400-dən çox sakini imzalayıb. Sakinlər ərazidə kanalizasiya xəttinin olmamasından şikayətlənir. Əlaqədar qurumlara dəfələrlə müraciət etsələr də problem həll edilməyib. Sakinlər müraciətlərində bildirir ki, ümidləri yalnız cənab Prezidentə və ölkənin birinci xanımı Mehriban Əliyevayadır. Sakinlər müraciətin mətnini ”Şərq” qəzeti redaksiyasına göndərərək problemin ictimailəşdirilməsini xahiş ediblər. Müraciətdə qeyd edilir:

**Hörmətli cənab Prezident. Əziz Mehriban xanım!**





Cənab Prezident, Siz qayğıkeş dövlət başçısı olduğunuzu daim sübut edirsiniz.  Vətəndaşların problemlərinə diqqətlə yanaşır, onların həlli üçün lazımi tapşırıqlar, göstərişlər verirsiniz. Sizin Bakı və şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına xüsusi diqqət göstərdiyiniz də göz önündədir. Paytaxt ətrafındakı neçə-neçə qəsəbə, yaşayış massivi məhz Sizin və əziz Mehriban xanımın qayğısıyla abadlaşıb, yenidənqurma işləri aparılıb, kommunal problemlər həllini tapıb, nəticədə sakinlərin rahat yaşayışı təmin edilib. Biz Saray qəsəbəsinin M.V.Vidadi, M.C.Paşayev, Sarı Aşıq, H.Əliyev küçələrinin sakinləri, həmçinin qəsəbədəki H.Axundov adına 3 saylı orta məktəb binası ətrafında yaşayanların ümidi ancaq Sizədir. Adıçəkilən ərazilərdə kanalizasiya xətti yoxdur. Çirkab suları küçələrdə göllənir, yağış yağanda həm yağış suları, həm də çirkab suları evlərə dolur. Uşaqlar məktəbə gedə bilmir. Sakinlər də evlərinə gedə bilmədiklərindən sular çəkilənədək yaxın qohumlarının evində gecələmək məcburiyyətində qalırlar. Bir müddət əvvəl sakinlər problemi öz daxili imkanları hesabına həll etməyə çalışıb. Ərazidə quyu qazılaraq kanalizasiya suları nasoslar vasitəsilə quyulara vurulmağa başlanıb. Bu isə böyük miqdarda elektrik enerjisi sərfinə gətirib çıxarıb, sakinlər böyük məbləğli sərfiyyat xərclərini ödəməkdə çətinlik çəkdiklərindən bu iş də yarımçıq qalıb. Sakinlər bir neçə dəfə problemin həlli üçün Abşeron Rayon İcra Hakimiyyətinə, yerli bələdiyyəyə, həmçinin ”Azərsu”  ASC-yə müraciət edib. Lakin problem həllini tapmayıb.

Cənab Prezident, hörmətli Mehriban xanım. Biz Saray qəsəbəsinin sakinləri Sizdən xahiş edirik ki, problemin həlli üçün müvafiq qurumlara tapşırıq verəsiniz. Yalnız Sizin göstərişinizlə problem həllini tapa bilər. İnanırıq ki, Saray qəsəbəsi də digər qəsəbələr kimi abadlaşacaq, küçələrimiz təmizlənəcək, uşaqlar məktəbə çirkab sularının içiylə getməyəcək.

*Qeyd edək ki, müraciəti Saray qəsəbəsinin 400-dən artıq sakini imzalayıb, şəxsiyyət vəsiqələrinin seriya və nömrəsini də əlavə ediblər.*

**Məlahət Rzayeva**

# "Omikron"a yoluxanlar xəstəliyi yüngül keçirir

## Səhiyyə naziri: "Hazırda məhdudlaşdırıcı addımların atılmasına zərurət yoxdur"



**"Səhiyyənin yeni müstəviyə qaldırılması nəzərdə tutulub". Bunu Səhiyyə naziri Teymur Musayev brifinqdə deyib. Nazir bildirib ki, ilk dövrdən başlayaraq dövlət başçısı vətəndaşların sağlamlığının qorunmasını bəyan edib: "Qısa müddətdə müasir avadanlıqla təchiz olunmuş xəstəxanalar istifadəyə verilib. Tələb olunan müasir dərman vasitələri ölkəyə gətirilib. Vətəndaşların mövcud vaksinlərə əlçatanlığı təmin olunub. Pandemiya bir daha göstərdi ki, ən böyük sərvət insan kapitalıdır".**

T.Musayev vurğulayıb ki, nazirliklə yanaşı səhiyyə sektorunda fəaliyyət göstərən digər dövlət qurumları da var: "Səhiyyənin yeni müstəviyə qaldırılmasında orta və qısamüddətli addımlar nəzərdə tutulub. Qısamüddətli addımlar ilk öncə səhiyyənin effektiv idarə edilməsi, yeni təşkil olunmuş struktur və dövlət qurumları ilə aktiv əməkdaşlıqdır. Orta müddətli isə insan kapitalını, qanunvericiliyi gücləndirmək, yerli dərman və tibbi avadanlıqlar ilə təminat, maliyyələşdirilməni optimallaşdırmaqdır".

### "Səhiyyə qurumlarının transformasiya ofisi yaradılacaq"

Səhiyyə naziri bildirib ki, səhiyyə qurumlarının transformasiya ofisi yaradılacaq: "Fəaliyyət bütün səhiyyə qurumları arasındakı münasibətləri optimallaşdıraraq vətəndaşların səhiyyə sistemindən məmnunluğunu təmin edəcək. Nazirliyin yeni saytından da müraciətlər qəbul olunacaq və dərhal təhlil olunaraq cavablandırılacaq. Kağız daşıyıcılar üzərində də müraciətlər qəbul olunacaq və operativ cavablandırılacaq".

**Nazir rəqəmsallaşdırma ilə bağlı yenilikləri də açıqlayıb:** "Rəqəmsallaşdırma, yeni dövrün çağırışıdır. 5 il üçün rəqəmsal səhiyyə strategiyası hazırlanır. Yaxın zamanda strategiya hazırlanıb təqdim olunacaq. Beləliklə səhiyyə sistemində iqtisadiyyatın digər sahələri kimi rəqəmsallaşmaya başlanılacaq. Burada əsas məqsədlər məmnunluğu təmin etmək üçün tibbi xidmətlərin yaxşılaşdırılmasıdır. Müasir standartlara uyğun tibbi statistik bazasının formalaşdırılması, iqtisadi şəffaflığın artırılması, azad olunmuş ərazilər də daxil olmaqla ölkə üzrə tibbi xidmətlərin artırılması, tibb işçilərinə rəqəmsal bacarıqların artırılması və beynəlxalq reytinqdə ölkəmizin irəli getməsidir. Strategiya çərçivəsində böyük layihələr həyata keçiriləcək".

### "Yerli dərman bazarının tənzimlənməsinə dair təkliflər təqdim olunacaq"

T.Musayev əlavə edib ki, səhiyyə xidmətlərinin əsas keyfiyyət indikatorlarından biri uyğun qiymətə effektiv dərman vasitələrinin mövcudluğudur: "Nazirlər Kabinetinin 14 oktyabr 2021-ci il tarixli Sərəncamı ilə "Əczaçılıq sektorunun inkişafı üzrə Komissiya" yaradılıb. Komissiyanın qarşısına dərman vasitələri sahəsində siyasətin və idarəetmə mexanizmlərinin, o cümlədən qeydiyyat prosedurlarının təkmilləşdirilməsi, əczaçılıq məhsullarının yerli istehsalının artırılması və digər tapşırıqlar qoyulub. Yaxın vaxtlarda Komissiyanın fəaliyyətinin yekunlarına əsasən yerli dərman bazarının tənzimlənməsinə dair təkliflər təqdim olunacaq". Nazir qeyd edib ki, əczaçılıq sektorunun inkişafı, dərman preparatları ilə ölkəmizin özünü təmin edə bilməsi ölkə rəhbərliyinin diqqət və nəzarətində olan məsələdir: "Son dövrlərdə Pirallahı Sənaye Parkında "RPharm" şirkətlər qrupunun istehsal kompleksinin istifadəyə verilməsi, "Diamed-Co" şpris istehsalı zavodunun yaradılması, Türkiyənin "Dəmirörən Holdinq"i ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi arasında dərman istehsalı sahəsində investisiya yatırımına dair sazişin imzalanması bu sahənin inkişafında müşahidə olunan müsbət hadisələrdir". Onun sözlərinə görə, hər bir səhiyyə sisteminin effektiv fəaliyyəti üçün dərmanlara tətbiq olunan qiymətləndirmə prosesinin formalaşdırılmasının sağlam şəkildə olması dərmanlara əlçatanlığın təmin olunmasıdır.

### "Yoluxma simptomları 2 gün sonra ortaya çıxır"

**Nazir "Omikron"a görə məhdudlaşdırıcı addımları zəruri saymır:** "Respublikada koranavirusla bağlı vəziyyət idarəolunan, tam nəzarət altındadır. Virusa yoluxanların müalicəsində heç bir problem yoxdur. "Omikron"la bərabər "Delta" ştammı da dövriyyədədir. Xəstəxanaya yerləşdirilənlər arasında, xüsusən reanimasiyaya düşənlərlə bağlı tədqiqatlar aparılır. Hazırda "Omikron"la bağlı məhdudlaşdırıcı addımların atılmasına zərurət yoxdur. Hər hansı qərar, xüsusi karantin rejiminin sərtləşdirilməsi, yoluxanların sayı, hospitalizasiya dinamikasına əsaslanır. Hazırda ümumi çarpayı fondunun yalnız 20 faizi, reanimasiya fondunun isə 10 faizi istifadədir. "Omikron"a yoluxanlar xəstəliyi yüngül keçirir. Vaksinasiya olunmayanlarda "Omikron" fəsadlar törədə bilir və bir neçə insan artıq reanimasiyaya yerləşdirilib". T.Musayev hazırkı dalğada hospitalizasiya sayının yoluxma sayları ilə nisbətdə "Delta" ştammından fərqləndiyini diqqətə çatdırıb: "Hazırda xəstəlik daha yüngül keçir. "Omikron"un kliniki gedişatını nəzərə alaraq deyə bilərik ki, yoluxma simptomları 2 gün sonra ortaya çıxır və 5 sutkadan sonra virus bədəndən xaric olmur. Buna görə karantin müddəti 7 günə endirilib".

**İsmayıl**



# "Kreml istəyir ki..."

## Aqşin Kərimov: "Strateji tərəfdaşlıq adı altında Qazaxıstanı öz orbitində saxlayıb, vassal halına gətirsin"

**Rusiya Prezidenti Vladimir Putinlə Qazaxıstanın ölkə başçısı Kasım-Jomart Tokayev arasında görüş keçirilib. V.Putin görüşün protokol hissəsindəki çıxışında Qazaxıstanın yanvar ayında beynəlxalq qruplaşmanın qurbanı olduğunu söyləyib:**

"Qazaxıstanda vəziyyət bərpa olunub. Ölkə respublika rəhbərliyinin səyləri sayəsində möhkəm dayanıb. Rusiya KTMT ölkələrindən biri kimi müqavilənin dördüncü bəndinə uyğun olaraq Qazaxıstana dəstək olub. Lakin əlbəttə ki, Qazaxıstanın öz rəhbərliyi, hüquq-mühafizə orqanları, Silahlı Qüvvələri başlıca rol oynayıb".

Həmçinin Qazaxıstanla Rusiya arasında strateji tərəfdaşlıqla bağlı mühüm sazişlər imzalanacaq. Bu barədə Qazaxıstan Prezidenti V.Putinlə danışıqlar zamanı bildirib: "Qarşıdakı danışıqların gedişində hər iki ölkənin strateji maraqlarına həqiqətən də toxunan bir sıra aktual məsələlər ətrafında fikir mübadiləsi aparmağı planlaşdırırıq. Mühüm sazişlər imzalanacaq. Ümumiyyətlə, strateji qarşılıqlı fəaliyyətimizdə, müttəfiqlik münasibətlərimizdə konkret nəticələri əldə etməyə qərarlıyıq. İnanıram ki, istədiyimiz yekuna nail olacağıq".

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə açıqlamasında bildirib ki, Qazaxıstan prezidenti ölkəsindəki qarışıqlıqdan sonra ilk səfərini Rusiyaya edib:** "Sözsüz ki, səfər Vladimir Putinin birbaşa tələbi əsasında gerçəkləşib. Tokayevin Moskvaya rəsmi səfərinin səbəblərindən biri Kremlin Qazaxıstandakı şəbəkələrinin qalıcılığının müzakirəsidir. Diqqət çəkən məqam odur ki, Tokayev Rusiyanın dəstəyi ilə iğtişaşlar üzərindən öz hakimiyyətini möhkəmləndirib. Nursultan Nazarbayevi və "kök atmış şəbəkəsini" zərərsizləşdirməyi bacarıb. Proses hələ də davam edir. Kreml istəyir ki, strateji tərəfdaşlıq adı altında Qazaxıstanı öz orbitində saxlayıb, vassal halına gətirsin. Bunun üçün əsaslar yaradılır. Sazişin hələlik mətnləri açıqlanmayıb, detallar bəlli deyil. Amma bu sazişlə Qazaxıstan və Rusiyaya bərabər hüquqların veriləcəyi qənaətinə gəlmək olmaz. Çünki bu anlaşma sözsüz ki, Rusiyanın diktəsi və planlarına müvafiq hazırlanır. Ona görə də bu sazişlə Qazaxıstanın hər hansı bir fərqlənmə qazanacağını düşünmək sadəlövhlük olardı. Üstünlük sadəcə Rusiya Qazaxıstana onun rəqiblərindən birinin müdaxiləsi halında özünün varlığını, əzələ nümayişini göstərdiyi zaman ola bilər. Bu səbəbdən hazırda Rusiyanın planlarında ittifaq modelinin qurulması məsələləri geniş yer alıb. Artıq Belarus Prezidenti Aleksandr Lukaşenko da Kremlin təlimatlarına uyğun planların bəzi hissələrini açıqlayır. Qazaxıstanı öz təsir dairəsinə saldıqdan sonra isə düşünürəm ki, növbəti hədəflər uğrunda Kreml səylərini ortaya qoyacaq".

**Sücayət Mehti**

# Putin Ukraynanı aşağılamağa cəhd etdi

## "Zelenskinin cavabı kifayət qədər təmkinli və ölçülü-biçilidir"



*Qabil Hüseynli: "Bəli, doğrudan da, Ukrayna gözəldir. Xalqı da möhtəşəmdir, qədim tarixə malikdir"*

**Ukrayna Prezidenti Vladimir Zelenski Rusiya Prezidenti Vladimir Putinə cavab verib.**

Bu barədə Ukrayna dövlət başçısı fransalı həmkarı Emmanuel Makronla görüşdən sonra brifinqdə danışıb.

Ukrayna prezidenti rus dilində cavab verəcəyini deyərək vurğulayıb ki, "aforizmin müəllifi" (Vladimir Putini nəzərdə tutur - red.) onu daha yaxşı başa düşsün:

"Şübhəsiz, bəzi şeylər var ki, Rusiya prezidenti ilə mübahisə edə bilməzsən. Ukrayna həqiqətən də gözəldir. "Mənim isə bir az artıqdır".

V.Zelenskinin sözlərinə görə, Ukrayna dözümlüdür, çünki bu, müdrikliyin göstəricisidir: "Bizim dözümlülüyümüz təxribatlara təsir göstərir. Biz cavab verməyərək özümüzü hörmətli aparırıq. Bu mənada dözümlülük müdriklikdir".

Qeyd edək ki, Putinin fikirləri ötən gün Moskvada Fransa Prezidenti Emmanuel Makronla danışıqlarda Ukraynanın ünvanına səsləndirilib: "Xoşun gəlsə də, gəlməsə də, döz, mənim gözəlim".

Rusiya Prezidenti Vladimir Putin insanlara və hadisələrə yanaşma tərzi ilə daim seçilib. Bu dəfə də Ukraynaya qarşı işlətdiyi cümlə ilə gündəmə gəlib. Lakin "gözəlim" deyərkən qarşı tərəfi daha çox incitmək məqsədi olduğunu göstərir. Ukrayna Prezidenti Vladimir Zelenski də həmişəki kimi öz qətiyyətini qoruyaraq cavab verib.

**Mövzu ilə bağlı "Şərq"ə danışan sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynliyə görə, siyasətdə kiməsə rişxənd etmək olmaz:**

"Putinin işlətdiyi cümlə ciddi bir iztehza və təkəbbürlü bir tonu özündə ehtiva edir. Ukrayna tərəfini aşağılamaq cəhdi var. Rusiyanın güclü və hər şeyə qadir olduğunu göstərmək istəyib. Diplomatiyada belə şeylər qəbul edilmir. Bu, jarqondur, ara söhbətidir. Hətta "oğru dünyası"nda daha çox istifadə olunur. Özünü "böyük siyasətçi" adlandıran şəxsin bu cür ifadəylə qarşı tərəfə lağ etməsi qəbuledilən deyil. Etika qaydalarına tamamilə ziddir. Putinin etdikləri bumeranq kimi özünə qayıdacaq".

**O, rəsmi Kiyevlə bağlı təəssüratlarını bildirib:**

"Zənnimcə, Vladimir Zelenskinin cavabı kifayət qədər təmkinli və ölçülü-biçilidir. Bəli, doğrudan da, Ukrayna gözəldir. Xalqı da möhtəşəmdir, qədim tarixə malikdir. Amma ruslar kimi aqressiv, təcavüzkar və ilhaqçı siyasət yeritmirlər. Özləri təcavüzə məruz qalıb. Buna baxmayaraq səbrli davranırlar".

**Cəmilə ƏZİM**

# "Kim nəzarətsiz qalırsa, oğurlamağa başlayır"

## Fazil Mustafa: "Mütləq cəmiyyətdə cəzasızlığın olmadığını göstərən addımlar atılmalıdır"

**2021-ci ildə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən ümumilikdə 144 nəzarət obyektində aparılmış tədbirlər nəticəsində 103,6 mln manat məbləğində artıq və əsassız ödənişlərə yol verilməsi aşkar edilib.**

Maliyyə Nazirliyindən verilən məlumata görə, nəzarət tədbirlərindən 59-u Dövlət Maliyyə Nəzarəti Xidmətinin iş planına əsasən, 77-si Respublika Baş Prokurorluğunun və Dövlət Təhlükəsizlik Xidmətinin qərar və məktublarına, 8-i isə vətəndaş müraciətləri üzrə mərkəzi icra hakimiyyəti orqanlarında, onların tabeli qurumlarında, dövlətə məxsus hüquqi şəxslərdə və bələdiyyə orqanlarında aparılıb.

Həmin qurumların siyahısında XİN, ƏƏSMN, Mədəniyyət Nazirliyi və 3 icra hakimiyyəti orqanının da adı var.

**Dövlət qurumlarında üzə çıxan maliyyə pozuntuları ilə bağlı "Şərq"ə danışan millət vəkili Fazil Mustafa qeyd edib ki, kim bir az nəzarətsiz qalırsa, oğurlamağa başlayır.**

"Dövlət büdcəsindən oğurlayır və müxtəlif üsullarla bu prosesi davam etdirir. Pozuntular aşkara çıxarılır, ancaq ictimai nəzarətin güclü effekti yoxdur. Ona görə də idarəetmə mexanizmini dəyişmək lazımdır. Vəsaitlərin xəzinəyə daxil olması və dövlət büdcəsinin talan edilməməsi üçün işlər görülməlidir. Müxtəlif mexanizmlər düzgün işləməli, inhisarçılıq ortadan qalxmalıdır. Əks halda heç kimə nəzarət etmək mümkün olmayacaq.

Ayrı-ayrı imtiyazlı şəxslər üçün oğurlamaq adi hala çevrilir və buna qarşı immunitet yaratmaq mümkün olmur. Mədəniyyət Nazirliyində və Milli Təhlükəsizlik Nazirliyinin keçmiş rəhbərinin fəaliyyəti ilə bağlı görün nələr baş verir. Bunlar hamısı ciddi məsələlərdir. Mütləq cəmiyyətdə cəzasızlığın olmadığını göstərən addımlar atılmalıdır. Bu olmadıqca belə halların hər zaman yaşandığını görürük. Bu qanunsuzluqlar çox ciddi şəkildə araşdırılmalı və münasibət bildirilməlidir".

**Sənan İsmayıl**





*"Rayonların tədricən inzibati cəhətdən ləğv edilərək iqtisadi rayon və ya vilayət formasında birləşdirilməsi dövlət büdcəsində on milyonlarla vəsaitə qənaət etmək imkanı yaradacaq"*

# İcra hakimiyyətləri tamamilə ləğv olunmalıdır

## Natiq Cəfərli: "Ölkədə aparılan inzibati islahatlar çərçivəsində bələdiyyələr ön plana çəkilməlidir"

**Gəncə şəhərinin Nizami və Kəpəz rayonlarının ləğv edilməsi təklif olunur. Bu, "Gəncə şəhərinin inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" qanun layihəsində əksini tapıb. Dəyişikliklə Nizami və Kəpəz rayonlarındakı inzibati ərazi dairələri Gəncə Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilir.**

Qanun layihəsi Milli Məclisin Regional məsələlər komitəsinin fevralın 11-də keçiriləcək iclasında birinci oxunuşda müzakirə ediləcək. Nizami və Kəpəz rayonlarının ləğv edilməsi məsələsi zaman-zaman gündəmə gəlib və ətraflı müzakirə edilib. Ekspertlər digər bölgələrdə də bir neçə kiçik rayonun inzibati vahid kimi ləğvini, yaxud başqa rayona birləşdirilməsini zəruri hesab edirlər. Onların fikrincə, bir çox sahələrdə aparılan struktur islahatlarını və ixtisarlaşdırmanı nəzərə alsaq, idarəetmədə mərkəzləşmə sistemi daha effektlidir.

**İqtisadçı Natiq Cəfərli "Şərq"ə bildirib ki, Azərbaycanda yerli özünüidarəetmə orqanının gücləndirilməsinə ehtiyac var. Ekspertin fikrincə, bu artıq sual doğurmayan məsələ olmalıdır və tezliklə həll yolları tapılmalıdır:** "İnzibati yerli özünüidarəetmə orqanı gücləndirilməsə bir çox problemlərin həllində ləngimələr ola bilər. İcra hakimiyyəti institutları öz-özünü doğrultmadı. Bu sahədə kifayət qədər problemlər yaşanır və icra hakimiyyətlərindən narazılıq artır. Nə qədər həbslər baş verdi, yerdəyişmələr oldu, amma nəticə dəyişmədi. Problemin kökündən həlli idarəetmə institutunun təkmilləşməsindən asılıdır. Böyük şəhər bələdiyyələri yaradılmalı və mer seçkiləri keçirilməlidir. İndiki qanunvericilikdə "böyük şəhər bələdiyyəsi" anlayışı yoxdur. Bələdiyyə sədrləri isə birbaşa yox, bələdiyyə üzvləri arasından seçilir. Bunu doğru hesab etmirəm".

N.Cəfərliyə görə, yerli özünüidarəetmənin gücləndirilməsi üçün icra hakimiyyətlərinin tamamilə ləğv olunması vacibdir: "Azərbaycanda dövlət büdcəsindən təkcə hər bir rayonun inzibati idarəetməsinə kifayət qədər çox vəsait ayrılır. Bu qədər rayonun olması dövlət büdcəsi üzərində əlavə yükdür. Rayonların tədricən inzibati cəhətdən ləğv edilərək iqtisadi rayon və ya vilayət formasında birləşdirilməsi dövlət büdcəsində on milyonlarla vəsaitə qənaət etmək imkanı yaradacaq. Ümumiyyətlə, ölkədə aparılan inzibati islahatlar çərçivəsində bələdiyyələr ön plana çəkilməlidir".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi;**

# İş adamları rahat nəfəs almağa başlayıb

## Sahibkarlıq sahəsində yoxlamaların dayandırılması müddətinin daha bir il uzadılması çox önəmli hadisədir



**Prezident İlham Əliyev "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunda dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib. Bu müddətdə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər. Həmin yoxlamalar da müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla aparılır.**

Qanunun müddəaları korrupsiya cinayətlərinin araşdırılması ilə əlaqədar Baş Prokurorluğun apardığı yoxlamalara şamil edilmir. Sahibkar bu qanunun tələbləri pozulmaqla həyata keçirilən yoxlamalardan müvafiq icra hakimiyyəti orqanına, prokurorluq orqanlarına, həmçinin inzibati və məhkəmə qaydasında şikayət verə bilər. Ümumiyyətlə, son illər Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində çoxsaylı dövlət proqramları qəbul olunaraq həyata keçirilib. Sahibkarlıq subyektləri üçün xeyli güzəştlər tətbiq olunub, onlara yaradılan süni əngəllər aradan qaldırılıb. Ölkədə sahibkarlığın davamlı inkişafının təmin edilməsi dövlətlə sahibkarlar arasında tərəfdaşlığın institusional təşkilini zərurətə çevirib. Sahibkarlar artıq mövcud problemlərin həllində iştirak edirlər. Bu baxımdan yaradılmış mexanizmlər dövlət-sahibkar münasibətlərinin sivil müstəvidə inkişafında əhəmiyyətli rol oynamaqdadır. Kiçik və Orta Biznesin İnkişaf Agentliyinin (KOBİA) yaydığı məlumata görə, hazırda Azərbaycanda sahibkarlıq subyektlərinin təqribən 99 faizini mikro, kiçik və orta biznes (KOB) subyektləri təşkil edir. 2021-ci ilin 1 yanvar tarixinə qeydiyyata alınmış sahibkarlıq subyektlərinin 92,1 faizini mikro, 5,3 faizini kiçik, 2,1 faizini isə orta sahibkarlıq subyektləri təşkil edir. Bu gün ölkəmizdə bir sıra qurumlar, o cümlədən KOBİA tərəfindən sahibkarlara verilən müxtəlif dəstək və xidmətlər təqdim olunur. Güzəştlər və dövlət dəstəyi həyata keçirilir, bir sıra institusional mexanizmlər fəaliyyət göstərir. Mikro sahibkarlıq subyekti olan hüquqi şəxslərin sahibkarlıq fəaliyyətindən əldə etdikləri mənfəətin 75 faizi vergidən azaddır. Eyni zamanda mikro sahibkarlıq subyektləri əmlak vergisindən azaddır. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən olan "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" prioritetinin alt məqsədlərindən biri də məhz kiçik və orta sahibkarlığın inkişafının stimullaşdırılması və dayanıqlı inkişafın hərəkətverici qüvvəsinə çevrilməsidir. Bu məqsədlə hazırda 2021-2025-ci illər üzrə hədəf və prioritetlərin müəyyənləşdirilməsi üçün müvafiq işçi qrupu çərçivəsində intensiv işlər aparılır.

**Sahibkarlara edilən güzəştlərlə bağlı iqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında bildirib ki, iş adamlarının qanunsuz yoxlamalara cəlb olunması aktual məsələ olmaqla yanaşı, həm də ən ağrılı yerimizdir. Ekspertin sözlərinə görə, sahibkarların lüzumsuz yoxlanılmasının daha bir uzadılması çox önəmlidir:** "Bu qərarla əksər iş adamları saysız-hesabsız yoxlamalardan xilas olur. Yoxlama məhdudiyyəti tətbiq olunmazdan öncə biznesmenlərin durumu acınacaqlı idi. Düzdür, son iki-üç ildə vergi ödənişlərini yığan qurumun fəaliyyəti normallaşıb. Sırf vergi ilə bağlı neqativ xəbərlərə demək olar ki, rast gəlmirik. Amma əvvəlki vəziyyət dözülməz idi. Qanunsuz yoxlamalarla sahibkar sinfini məhv etmişdilər. Nə qədər iş adamı mövcud təzyiqlərə tab gətirmədiyi üçün Rusiya, Türkiyə, Çin, Ukrayna və Belarusa getmək məcburiyyətində qalmışdı. Sahibkarları ölkədən didərgin salan müəyyən dairələr var idi. Cənab Prezident tərəfindən bunun qarşısı alındı və kütləvi biabırçılığa mane olundu. Ancaq problemlər hələ də qalmaqdadır. Söhbət təkcə vergilərdən getmir ki? Digər qurumlar, məsələn, Fövqəladə Hallar Nazirliyi, yaxud Qida Təhlükəsizliyi Agentliyi və başqa orqanlar "zəruri" yoxlamalarla iş adamlarını bezdirirlər. Sahibkarlar bəzi qurumların tələblərini yerinə yetirməkdə aciz qalır. FHN hansısa obyektə girib yanğınsöndürmə ilə bağlı elə tələb qoyur ki, heç elmi-tədqiqat institutları bundan baş çıxara bilmir. Əfsuslar olsun ki, vergi sistemindəki inqilabi dəyişiklik digərlərinə sirayət etmədi. Sahibkarlar rahat şəkildə, qorxub-çəkinmədən vergi sistemində çalışan əməkdaşlarla əlaqə saxlayır, problemini həll edir. Bu iş kompleks olmalı, digər qurumlar da lazımsız yoxlamaları dayandırmalıdır. Biznesmenlərin əlindən tutub, onlara dəstək olmaq lazımdır".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Maliyyə Nazirliyi bəzi qurumlarda korrupsiya faktları aşkarladı

## Əliməmməd Nuriyev: "Belə yoxlamaların olması çox vacibdir"

**Azərbaycanın Maliyyə Nazirliyi tərəfindən ölkənin müxtəlif qurumlarda nəzarət tədbirləri aparılıb. Nəticədə məlum olub ki, Biləsuvar, Cəlilabad və Şəmkir rayonlarındakı avtomobil yollarında təmir-tikinti işlərinin həcmlərinin sənədləşmələrdə artırılması, büdcə təşkilatları tərəfindən vəsaitin köçürülməsinə baxmayaraq, materiallar alınmayıb, binaların qızdırılması üçün dizel yanacağının alınmasına ayrılan vəsait mənimsənilib.**

Xarici İşlər Nazirliyində isə dövlət büdcəsində dəftərxana və təsərrüfat mallarının alınması üçün nəzərdə tutulan vəsaitin satıcı təşkilatların hesablarına köçürülməsinə baxmayaraq, həmin mallar, habelə mətbəə blanklarının bir hissəsi alınmayıb. Kəlbəcər Rayon Təhsil Şöbəsində də sinif komplektlərinin artıq saxlanıldığı, habelə məktəblərdə sinif otaqlarının sayı imkan verməyi halda dərslərin keçirilməsi adı ilə müəllimlərə əməkhaqqı ödənilib. Yevlaxda icarəyə verilən bələdiyyə torpaqlarından toplanmış icarə haqları bələdiyyənin hesabına mədaxil olunmayıb. Mədəniyyət Nazirliyində bir neçə müəssisə və təşkilata qabaqcadan ödənilmiş vəsaitlərin müqabilində materiallar alınmayıb, Nazirliyin tabeliyində olan mədəniyyət obyektlərinə satın alınaraq təhvil verilməsi nəzərdə tutulan material qiymətlilərinin xeyli hissəsi həmin obyektlərə ümumiyyətlə verilməyib.

**Hüquqşünas Əliməmməd Nuriyev Maliyyə Nazirliyi tərəfindən aşkarlanan bu qanun pozuntularından "Şərq"ə danışarkən bildirib ki, belə yoxlamaların aparılması vətəndaşlardan, hüquq-mühafizə orqanlarından, fiziki şəxslərdən daxil olan məlumatlarla bağlı olur:** "Bizdə qurumlar korrupsiyaya meyillidirlər. Korrupsiyaya qarşı aparılan mübarizə tədbirləri də rəsmi dövlət orqanlarının əksəriyyətini əhatə etmir. Beləcə XİN, Mədəniyyət Nazirliyi və digər yerli icra hakimiyyəti qurumlarında bu hal baş verir. Ona görə hər şeydən öncə prosesi daha şəffaf aparmaq lazımdır". Ə.Nuriyevin fikrincə, hər il dövlət büdcəsindən yerli icra hakimiyyətlərinə ayrılan vəsaitlər barədə məlumatların onların saytında yerləşdirilməsi və bununla bağlı mütəmadi hesabatların alınmasıyla prosesə aydınlıq gətirə bilər: "Belə olduqda vətəndaşlarımız da sadalanan qurumlarda ayrılan vəsaitin məbləğini, bu vəsaitləri tender əsasında kimlərin udduğunu bilər. Digər tərəfdən tender başa çatdıqdan sonra onun nəticələrinin hesabatı olmalıdır. Bu hesabatlar da həmin qurumların saytlarında yerləşdirilməlidir. Amma biz həmin qurumların saytlarında belə bir şeyə rast gəlmirik". Hüquqşünas müxtəlif rayonlarda mərkəzi icra hakimiyyətində keçirilən tender iştirakçılarına diqqət çəkib: "Onların demək olar ki, hamısı eyni şəxslər və ya hansısa yüksək vəzifəli məmurun yaxın qohumlarıdır. Digər tərəfdən nəzər salsaq görərik ki, az miqdarda şirkətlər bu prosesdə qalib olub. Son illər bu proses üzərində işlər görülsə də, boşluqlar yenə qalıb".

**Ə.Nuriyev diqqətə çatdırıb ki, bir çox hallarda qurumlar tərəfindən maliyyənin idarə edilməsinə dair məsələlərə səriştəsiz yanaşmalar olur:** "Belə olduqda ayrılan maliyyələr səmərəli istifadə olunmur. Beləliklə də biz çoxlu sayda mənimsəmələrin, eləcə də, dövlət büdcəsinə gəlməli olan vəsaitin ora daxil olmadığının şahidi oluruq". Hüquqşünas düşünür ki, belə yoxlamaların olması çox vacibdir. Amma bu, bütün müəssisələri, qurumları əhatə edə bilməz: "İndi biz yeni şəffaf və hesabatlı sistem qurmağa çalışmalıyıq. Burda da əsas diqqəti məlumatların açıqlığına yönəltməliyik".

**Güneş Mərd**

# Azərbaycan televiziyasının ilk yayım günü...

## Arzu İsayeva: "Gənc aktrisa Nəcibə Məlikova efirdə məşhur "Diqqət, göstərir Bakı" sözlərini səsləndirib"



**14 fevral Azərbaycan televiziyasının müntəzəm yayıma başladığı gündür. Bəs, 66 il əvvəl bu yayım necə baş verib və Bakıda ilk dəfə işıqlanan ekranlarda tamaşaçılar nələrə baxıblar? Bu barədə suallarımızı BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru Arzu İsayeva cavablandırıb.**

**- Arzu xanım, efirə çıxmaq, müntəzəm yayıma başlamaq üçün o dövrdə ciddi hazırlıq işləri aparılmışdı...**

- Əlbəttə, bu yayıma qədər təxminən iki il ərzində ciddi texniki və yaradıcılıq işləri görülüb. Tarixdən bəllidir ki, Bakıda televiziya mərkəzinin layihəsi hələ 1953-cü ilin sentyabrında hazırlanıb, bir il sonra onun təməli atılaraq sürətli tikinti işlərinə başlanıb. Artıq 1955-ci ilin axırlarında istifadəyə hazır olan studiyada texnoloji sistemləri sınaqdan keçirmək üçün ara-sıra sınaq-yoxlama verilişləri aparılıb.

**- Yayım niyə məhz 14 fevralda başlanıb? Bu tarixin seçilməsinin bir səbəbi varmı?**

- Əlbəttə, bunun səbəbi var idi, həm də çox ciddi səbəb. Ona görə ki, 1956-cı il fevralın həmin günü Sov.İKP-nin XX qurultayı açılırdı və Cənubi Qafqazın hər üç respublikasında TV studiyasının işə düşməsi bu tarixi hadisə ilə bağlı idi. Yəni bu, sövet dövrünün bir ənənəsi idi ki, qurultay başlanan gün onun şərəfinə əhəmiyyətli hadisələr baş verirdi. Bu mənada bizdə də 1956-cı il fevralın 14-ü Azərbaycan televiziyasının yaranış tarixinə çevrildi.

**- Sizcə, bu hadisənin əhəmiyyəti nədə idi?**

- Təbii ki, bu, sovet Azərbaycanının ictimai-siyasi və mədəni həyatında bənzərsiz hadisə sayılırdı. TV tariximizin görkəmli tədqiqatçıları olan professorlar Yalçın Əlizadə və Qulu Məhərrəmlinin yazdıqları kimi, həmin gün ölkə həyatında həm ictimai-siyasi əhəmiyyətinə, həm də mədəni, mənəvi-estetik dəyərinə görə müqayisəyəgəlməz bir tarix yaşanmışdı.

**- Bəs, həmin gün yayım necə baş verdi, ekranda nələr göstərildi, o gündən nələr yadda qaldı?**

- İlk veriliş günü ekranda əvvəlcə sınaq cədvəli göstərilib, sonra gənc aktrisa Nəcibə Məlikova efirdə məşhur "Diqqət, göstərir Bakı!" sözlərini səsləndirib, ölkədə müntəzəm yayımın başlanması münasibətilə tamaşaçıları təbrik edib. Sonra studiyada sonradan televiziyanın ilk sədri olmuş Teymur Əliyevin aparıcılığı ilə bir təbrik söhbəti olub. Həmin söhbətdə iştirak edən Xalq şairi Süleyman Rüstəm və yazıçı Mehdi Hüseyn yayıma başlayan televiziyanın cəmiyyətin və insanların həyatında oynayacağı rol barədə danışıblar. Söhbətdən sonra o dövrün məşhur xanəndəsi Sara Qədimovanın konserti olub. Həmin tarixi anlarda operator kimi kamera arxasında mühəndis Sərvər Quliyev, rejissor pultu arxasında isə məşhur Kamil Rüstəmbəyov dayanmışdı.

*"Xalq şairi Süleyman Rüstəm və yazıçı Mehdi Hüseyn yayıma başlayan televiziyanın cəmiyyətin və insanların həyatında oynayacağı rol barədə danışıblar"*





**- Deyəsən, həmin gün "Bəxtiyar" filmi də göstərilib?!**

- Bəli, konserdən sonra tamaşaçılar kibrit qutusundan bir az böyük olan ekranda "Bəxtiyar" filminə baxıblar, amma film efirə səssiz gedib. Buna səbəb kimi də yayımdan bir gün əvvəl studiyada yanğın baş verməsi və bəzi naqillərin zədələnməsi göstərilir. Hərçənd qüsurlar tezliklə aradan qaldırılıb və ertəsi gün Xalq artisti Hökümə Qurbanovanın təqdimatı ilə həmin film yenidən və heç bir texniki qüsur olmadan göstərilib.

**- Həmin günün başqa hansı özəlliyi olub?**

- 14 fevralda yadda qalan bir hadisə də o olub ki, teleqüllənin inşası sona yetmədiyi üçün studiya antenası 44 metrlik adi neft buruğunda quraşdırılıb. Lakin 2-3 aydan sonra hər şey yoluna qoyulub.

**- Arzu xanım, çox maraqlıdır ki, həmin gün verilişlərə nə qədər adam baxıb, yayım bütün Azərbaycanı, yoxsa ancaq Bakını əhatə edib?**

- Yayımın yeni başladığı ilk dövrdə Azərbaycan televiziyasının tamaşaçı auditoriyası Bakının və ətraf rayonların cəmi 60 min sakinindən ibarət idi. Verilişlər isə sınaq xarakteri daşıyırdı və studiya əvvəlcə həftədə 2, sonra isə 3 dəfə və təxminən 2 saat müddətində efirə çıxırdı.

**- Bəs sonrakı günlərdə "Bakı" studiyasının tamaşaçılarına nələr göstərib?**

- İlk dövrlər ekranda əsasən kinofilmlər, kinojurnallar və çəkilmiş hazır konsertlər, ədəbi tamaşalardan parçalar nümayiş etdirilirdi. Moskvadan - Mərkəzi TV-dən də "Bakı" studiyasına xeyli hazır lentlər göndərilirdi. Bunlar əsasən təşviqat xarakterli ictimai-siyasi proqramlar, "Znanie" jurnalının buraxılışları, elmi-kütləvi filmlər idi.

Müntəzəm yayıma başladığı 6 ay ərzində "Bakı" studiyası xeyli faydalı iş görə bilmişdi. Həmin günlərdə "Ədəbiyyat və incəsənət" qəzeti (2 sentyabr 1956) yazırdı ki, bu müddətdə studiya efirdə 100-ə yaxın bədii film göstərib.

**- Yəqin ki, ilk efir dövrünün çətinlikləri də olub?**

- Əlbəttə, televiziya işi bunsuz olmur. Yayıma yeni başladığından telemərkəzdə lazımi aparatlar çatışmırdı. Burada yalnız bir studiya telekamerası, bir də kinofilmlər və diapozitivlər nümayiş etdirmək üçün kinoproyeksiya zalında yerləşən iki kamera vardı. Studiya 30 kvadratmetrlik iki otaqdan ibarət idi. Yarıya bölünmüş bu otaqların birində kinoaparatlar yerləşirdi, o birində isə diktorların və kiçik musiqi qruplarının çıxışları efirə verilirdi. Lakin bu çətinliklərə baxmayaraq studiyanın kiçik kollektivi maraqlı verilişlər yaradır və tamaşaçıların zövqünü oxşamağa çalışırdı.

**- Arzu xanım, maraqlı məlumatlara görə təşəkkür edirik.**

**Söhbəti yazdı: Sona Məmmədova, BDU-nun Jurnalistika fakültəsinin 3-cü kurs tələbəsi**



# "Çağrı Mərkəzi" çağırışlara cavab verə biləcəkmi?

## Şəmsiyyə Namazlı: "Biz bu qurumu fəaliyyətindən sonra tam qiymətləndirə bilərik"

**Azərbaycanın Səhiyyə naziri Teymur Musayev bu gün keçirdiyi brifinqdə Səhiyyə Nazirliyi yanında Vahid Səhiyyə "Çağrı Mərkəzi" yaradılacağını deyib.**

O bildirib ki, vətəndaşlar yaradılacaq "Çağrı Mərkəzi"nə müraciət edərək tibbə bağlı istənilən sualları ünvanlaya biləcəklər: "Bu, vətəndaşların problemlərinin daha tez həllinə və sorğuların operativ şəkildə cavablandırılmasına şərait yaradacaq. Təbii ki, nazirliyin rəsmi saytı vasitəsilə daxil olan müraciətlər də qəbul olunaraq dərhal cavablandırılacaq. Eyni zamanda kağız daşıyıcılar vasitəsilə daxil olan müraciətlərə də davamlı olaraq, operativ və effektiv baxılması təmin ediləcək".

T.Musayev onu da qeyd edib ki, səhiyyənin rəqəmsallaşdırılması ilə bağlı strategiya hazırlanır:

"Belə ki, beş illik bir dövrü əhatə edəcək strategiyanın yaxın vaxtlarda aidiyyəti üzrə təqdim olunması planlaşdırılır. Beləliklə səhiyyə sistemi də iqtisadiyyatın digər sahələri kimi rəqəmsallaşmağa başlayacaq".

**Səhiyyə sahəsində baş verəcək yenilikləri "Şərq"ə dəyərləndirən Tibb və fəlsəfə elmləri doktoru, həkim Şəmsiyyə Namazlı bildirib ki, Vahid "Çağrı Mərkəzi"nin yaradılması yaxşı təşəbbüsdür:**

"Əvvəlcədən qurumun necə olacağı haqqında heç nə deyə bilmərik. Fəaliyyətindən sonra onu qiymətləndirmək olar. Amma hər halda, belə bir mərkəzin yaradılması müsbət qarşılanmalıdır. Çünki problemi olan şəxslər nazirliklə əlaqə yarada bilmirlər. Məktub vasitəsi ilə müraciət edirlər. Bu məktubların da cavabı gecikir və problemin həll olunma müddəti uzanır. Əvvəllər Səhiyyə Nazirliyində "Məktublar və Şikayətlər" şöbəsi var idi, yəqin ki, hələ də var. Hər bir vətəndaşın əli ora çatırdı və qəbula düşə bilirdi. İndi isə bu çox çətindir. Bu baxımdan yaranacaq mərkəz alqışlanmağa dəyər. Heç olmasa, insanlar sözlərini telefon vasitəsi ilə deyə bilər. İndi buna əməl edilib-edilməyəcəyini, zənglərin gec, ya tez cavablandırılacağını bilə bilmərik. Xüsusilə regionlarda yaşayanlar üçün bu, daha əlverişli olacaq. Çünki hansısa problemi həll etmək üçün insanlar xeyli zaman itirirdi - işdən icazə almaq, yol pulu, burada qalmaq və s. kimi məsələlər də var idi. Hazırda isə ən azından ilkin olaraq, zənglə istənilən məlumatı ala biləcəklər. Bu həm də vaxta və maddiyyata qənaət olacaq. Yenə də deyirəm, biz bu qurumu fəaliyyətinə baxıb sonra tam qiymətləndirə bilərik".

**Çimnaz Şahlar**

# "Başıma oyun açıblar"

## Əməkdar artistin oğlu: "Başqasının yerinə həbsxanada yatdım"



**"Səsimin dəyişən ərəfəsində çadır toylarında oxuyurdum. Pul qazanırdım, sevinirdim. Ağlıma da gəlmirdi ki, özümü bədvəxt, səsimi heç edirəm. Deyilənlərə qulaq asıb, 3 il oxumasaydım, səsimi qorusaydım, indi Azərbaycanı dünyanın böyük səhnələrində təmsil edərdim".**

Axşam.az xəbər verir ki, bu sözləri Əməkdar artist Rəhman Rəhmanovun müğənni oğlu Emil Rəhmanoğlu "Söhbət musiqidən gedir" proqramında deyib. O bildirib ki, illər əvvəl başqasının günahını boynuna götürərək həbsxanada yatıb:

"Pulun olanda ətrafına çox adam yığışır, qardaşım, canım deyir. Bir də ayılırsan ki, qardaş da, o insanlar da, pullar da yoxdur. Özündə bataqlığın dibindəsən. Ordan çıxmaq üçün ip lazımdır, pul olmalıdır. Yolumu azana qədər qazandığımı evə gətirirdim. Sonra yolumu azdım... Günlərlə yox olurdum, evdən axtarırdılar.

Başıma oyun açıblar. Elə adam olub ki, onun yerinə həbsxanada yatmışam. Gözümün qabağında ağlayıb, demişəm subayam, onun balası var, gedim yatım həbsdə. Ağıllananda dedim niyə etdim? Həbsdən çıxandan sonra mənə pul da verməyəcək, ailəmə baxmayacaq. Heç ailəsi onu saymırmış da...".

*Qeyd edək ki, Emil iki dəfə həbsxanaya düşüb. Emil 2008-ci ildə soyğunçuluq etməkdə təqsirləndirilərək 6 il azadlıqdan məhrum edilib. 4 ildən sonra o, yenidən həbs olunub.*

# Bakı da belə ola bilər(di)

## Budapeşt insan yönümlü əsl şəhər nümunəsidir



(Əvvəli səh: 8-də)

**56 metr uzunluğunda tramvay**

*Bakıda da kaş belə tramvaylar olardı...*

Videomaterialda bloger-urbanist Anar Əliyev "Macarıstanın paytaxtı Budapeştdə bütün hərəkət iştirakçılarını düşünüblər. Şəhərdə ictimai nəqliyyatın 5 növü (metro, avtobus, tramvay, trolleybus, taksi) fəaliyyət göstərir. Dünyanın ən uzun tramvayı da məhz bu şəhərdədir", deyir.

A.Əliyev Budapeşt yollarını, küçələrini, ictimai nəqliyyatını belə müşahidə edib:

- Aeroportdan şəhər mərkəzinə gəlmək üçün xüsusi avtobuslar var. 20-30 dəqiqə intervalla işləyirlər. Taksi xidməti də var. Kim hansını istəyir, ona minsin. Budapeştdə yol bölgüsü dəqiqliklə aparılıb. Geniş səkilər, parkinq, velosiped zolağı, avtobus zolağı, tramvay, trolleybus xətləri avtomobillərin hərəkət zolağından ayrıdır. Avtobusların ayrıca zolağı var. Tıxaca düşmədən fasiləsiz hərəkət edirlər. Ehtiyac duyulduqda avtobuslar da tramvay zolağından istifadə edir. İki hərəkət zolağından biri mütləq ictimai nəqliyyata ayrılıb. Avtomobillər üçün cəmi 1 zolaq var. Bu, insanları narahat etmir, kimsə "niyə cəmi 1 zolaq", deyə etiraz da etmir. Çünki bu şəhərdə ictimai nəqliyyata üstünlük verilir. Bir tramvay 100-200 avtomobili əvəz edir. Dünyanın ən uzun tramvayı da məhz Budapeştdədir. Bunlar 40-50 ilin tramvaylarıdır. 9 vaqondan ibarət tramvay var. 56 metr uzunluğunda! Əməli-başlı metrodur! Yeni tramvaylar da var, 5 seksiyalı. Kaş Bakıda da belə tramvaylar olardı!.. Trolleybuslar da "sovet dönəmi"ndən qalmadır. Trolleybusların nömrələri 70-dən başlayır. Sovet rəhbəri olmuş Stalinin yubileyi münasibətilə nömrələniblər, o vaxtdan da belə qalmaqdadı. Trolleybuslar naqillərini endirib elektromobil kimi də hərəkət edə bilir. Macarıstanın bir zamanlar məşhur olan "İkarus" avtobusları trolleybuslara dönüşüb. Köhnəlmiş avtobusları "metalloma" atmayıblar, trolleybusa çeviriblər. Xüsusi olaraq gecə marşrutları fəaliyyət göstərir. Dayanacaqlarda gecə avtobusları qara işarələnib. Yeni axşam 23:00-24:00-dən sonra adamlar 1 manatlıq (artıq 2 manatdır) taksilərin umuduna qalmır.

**Gediş haqqı ucuzdur**

Avtobus dayanacaqlarındakı elektron lövhələr hansı avtobusun neçə dəqiqəyə gələcəyini göstərir. İntervallar çıx qısadır. Avtobuslara, həmçinin tramvaylara rahat minmək üçün dayanacaq boyunca bir neçə yerdə "zebralar" çəkilib ki, sərnişinlər avtobus salonuna istənilən - ön, orta və ya arxa qapıdan daxil ola bilsin. Avtobuslar üçün gediş haqqı bankomatlarda doldurulur. Bizimki kimi plastik kartlar deyil. Adi kağız qəbzlərdir. Onları avtobusda cihaza yapışdırmağa da ehtiyac yoxdur. Bu qəbz əlinizdədirsə, sizin ictimai nəqliyyatdan istifadə haqqınız var, deməli. Gediş haqqı qəbzləri günlük, aylıq, saatlıq da almaq olur. Gediş haqqı ucuzdur. Məsələn, tələbələrə limitsiz aylıq gediş kartları verilir. Bir tələbənin aylıq yol xərci bizim pulla 18 AZE təşkil edir.

**Metro**

1896-cı ildə tikintisi başlamış Budapeşt metrosunun köhnə və yeni stansiyaları var. Köhnə stansiyalar çox gözəldi, sanki muzeyə, ya da mənzilə daxil olursan. Stansiyalar dəmiryol vağzalını da xatırladır. Taxta qapılar, qədim güzgülər. Bəzi metro stansiyalarının girişində nə pillekən var, nə də eskalator. Küçədən birbaşa metroya daxil olursan. Təbii, sonradan tikilmiş yeni metrostansiyalar müasir dizayndadır. Metroda 3 vaqondan ibarət köhnə qatar da saxlanılıb və xidmətdədir. Bu vaqon təxminən 70 yaşındadı. Həmçinin modern üslubda - maşinistsiz hərəkət edən metro qatarları da var.

**Keçidlər**

Budapeştdə yeraltı və yerüstü keçidlərdə də piyadaların rahatlığı nəzərə alınır. Yeraltı keçidə düşmək istəmirsənsə, piyada zolağı - "zebra"lar vasitəsilə qarşı küçəyə keçə bilirsən. Velosipedlər üçün də ayrıca keçidlər çəkilib. Velosipedlər yolu keçən piyadalara mane olmur. Qarşı tərəfə, yaxud yolun başqa istiqamətinə keçmək üçün metro keçidlərinə enməyə də ehtiyac yoxdur. Piyadalar üçün hər yerdə yerüstü keçidlər təşkil edilib. Bakıda, xüsusilə "Koroğlu" metrostansiyası ətrafında yolu keçmək üçün mütləq gərək yeraltı keçidə düşəsən. Üst yol yalnız avtomobillərə məxsusdur. O boyda uzunluqda, böyüklükdə keçiddə hərəkət etməksə insanın həyatını rəsmən "qaraldır". Əlil arabalarının keçidi üçün də hər cür imkan var. İşıqforlarda velosipedlər üçün xüsusi işıq yanır.

**Küçələr, səkilər**

Budapeştdə ortaq küçə prinsipi mövcuddur. Həm piyadalar, həm də avtomobillər eyni küçə ilə hərəkət edə bilir. Belə küçələrə adətən daş döşənir, çünki daşlı yol maşınların sürətini azaldır. Belə küçələrdə sürət həddi 30-dur. Müasir urbanistik transformasiya metoduna əsasən yolun kənarındakı parkinqlər yığışdırılır, sürət həddi aşağı olsun deyə yolda süni əyrilik yaradılır. Küçələr kvartallara bölünüb. Müəyyən məsafə arasında skamyalar qoyulub. Yorulmusunuzsa, əyləşin, dincinizi alın. Yorğunluğu dəf etmək üçün istirahət parkı axtarmağa ehtiyac qalmır. Ara yollardakı səkilər pandussuzdur. Bu da rahat hərəkəti təmin edir. (Daha Bakıdakı kimi yolu keçmək üçün səki kənarlarını "iri addımlarla" aşmalı olmursan. Xüsusilə Hacıbala Abutalıbovun dönəmində səki kənarlarının necə hündürləşdirildiyini xatırlayaq. Yağışlı, qarlı havada sürüşkən səkilər də bir ayrı bəladır - M.R.) Maşınların səkidə saxlanması, avtomobillərin səkiyə "dırmaşması", piyadaların yolunu kəsməsi Budapeştdə qadağandır. Küçə boyunca marketlər, "toçka"lar da sıralanmayıb. Dönərxanalar da hər addımda görünmür. Deyəsən, bu şəhərin sakinləri çörək "yemir"...





**Parklanma**

Gəldik, bakılıların ən böyük problemi parklanma məsələsinə. Söhbəti çox uzatmayaq. Budapeştdə parklanma qiymətləri müddətə görə dəyişir. Səhər saat 08:00-dan axşam 20:00-dək parklanma qiyməti 3 manatdır. Amma parkinqdə avtomobili 3 saatdan artıq saxlamaq olmaz. Əks halda təkərlər bloklanır. Yox, evakuator gəlib aparmır. Mərkəzə nisbətən ətraf ərazilərdə parklanma qiymətləri nisbətən aşağıdır. Parklanma yerinin bir özəlliyi də budur ki, burada ən azı bir avtomobil üçün daim boş yer saxlanılır. Tələb-təklif tənzimlənir.

**Avtomobil icarəsi**

Budapeştdə "Car shering" xidməti mövcuddur. 1-2 saatlıq avtomobil kirayələyə bilərsiniz. Bir var "renta car", bütün gün ərzində avtomobil icarəsi, bu, bahadır. Amma "car shering" xidməti sərfəlidir. Təcili harasa getməlisinizsə, yaxınlıqdakı avtomobillərdən birini icarəyə götürə bilərsiniz. Avtomobili mobil oplikasiya vasitəsilə blokdan çıxarır və istifadə edirlər. Sarı taksi fəaliyyəti də var. Üstəlik, bu sarı taksilər avtobus zolağı ilə hərəkət edə bilir.

Elektromobil, elektroskuterlər

Elektromobillər yaşıl rəngdə nömrələnib. Müəyyən ərazilərdə enerji doldurma məntəqələri mövcuddur. Elektroskuterlər üçün parklanma pulsuzdur, ya da imtiyazlı şərtlərdir. Elektroskuterlər də küçələrdə sərbəst şəkildə qoyulub. Kim istəsə istifadə edə bilər. Velosipedlərin də, elektroskuterlərin də xüsusi dayanacaq yerləri var.

**Sürət həddi 50-dir**

Budapeştdə, demək olar bütün Avropa şəhərlərində olduğu kimi şəhər daxilində sürət həddi 50 km-saatdır. Özünü Avropaya aid hesab edən yalnız 5 ölkənin şəhərlərində sürət həddi 60-dır. Bunlar Azərbaycan da daxil 3 Qafqaz ölkəsi, Rusiya və Belarusdur.

**Binalar**

Nəhayət, Budapeştin tarixi memarlıq abidəsi sayılan binaları barədə, A.Əliyevin reportajından qısaca xatırlatma. Budapeştdə tarixi binanın yanında hündürmərtəbəli müasir yaşayış və ya ofis binası görmək mümkün deyil. Köhnə binanın yanında yenisi tikilibsə də, eyni boyda və mümkün qədər oxşar dizaynda inşa edilir. Yaşayış binalarının həyəti yaşıllıqdır. Həyətlərə girişdə şlaqbaumlar da yoxdur. Binaların birinci mərtəbəsi ofislərə, mağazalara icarəyə verilsə də burada nə pillekənlər, nə də xüsusi ayırmalar var. Ofislər, mağazalar irəli uzanıb səkini zəbt etməyib. Hamısı eyni xətt üzrədir. Mağazaya, ofisə daxil olmaq üçün nə yuxarı çıxmalı, nə də aşağı düşməlisən. Binalara giriş qapıları səkilərlə eyni səviyyədədir.

**P.S.**

**Rəhmətlik Brejnev demişdi ki, "Bakı gözəl şəhərdir. Belə şəhərdə yaşamaq və işləmək xoşdur". Bakının gözəlliyindən də əsər-əlamət qalmayıb. Rahatlığı və insan yönümlü olubolmadığı da zatən hər halından bəllidir.**

**Məlahət Rzayeva**

**Elan**

İbrahimov İsrafil İsmayıljonoviçin adına Hacıqabul rayonunun Talış kənd 637 nömrəli tam orta məktəbindən verilmiş attestat itdiyi üçün etibarsız sayılır.

Abdullayev Ələsgər Rəsul oğlunun adına verilmiş veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
-**MÜHASİBAT** (2 AY)
-**Mobil telefonların təmiri** (3 ay)
-**KOMPYUTER** (1-3 AY)
-**KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
-**KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
-**Dizayn** (3-6ay)
-**Masaj** (3 ay)
-**Biçmə - Tikiş** (3 ay)
-**Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 417



## İki min il əvvələ aid qəbir...

### Cəlilabadda abidə aşkarlanıb

**Cəlilabad rayonunda 2 min il əvvələ aid qəbir abidəsi aşkar edilib.**

"Report"un Muğan bürosunun məlumatına görə, abidə rayonun Uzuntəpə kəndi ərazisində ev tikintisi ilə bağlı qazıntı aparılarkən tapılıb.

Qəbir abidəsində mərhum oturaq vəziyyətdə basdırılıb, qolunda tunc bilərzik, ətrafında isə saxsı qablar qoyulub.

Tapıntı ilə bağlı "Report"un yerli bürosuna açıqlama verən tarixçi Ələsgər Mirzəzadə qeyd edib ki, qəbir ilkin ehtimalla 2 min il əvvələ aid edilir. Abidə ilə bağlı AMEA-ya müraciət edilib.

## Böyük rəğbət qazandı

### Yaralı cüyürü evinə gətirib qayğı göstərdi



**Türkiyənin Bartın bölgəsinin sakini dərə kənarında təsadüf nəticəsində aşkar etdiyi cüyürü evinə apararaq onun müalicə etmək qərarına gəlib.**

Cüyürün yaralı ayağını sarıyan kişi daha sonra hadisə barədə Türkiyənin Təbiəti Qoruma Milli Parklar Müdirliyinə məlumat verib.

Yaralı cüyürün yanından bir an belə ayrılmayan Sami Ərdoğan adlı şəxsin bu addımı sosial şəbəkələrdə böyük rəğbətlə qarşılanıb.







# Kral yeməyi

### Qara kürü dəyərində olan dombalanı təlim görmüş itlərin köməyi ilə toplayırlar



**Ona trüfel göbələyi də deyilir. Bildiyimiz, el arasında dombalan adlandırdığımız trüfel göbələyi göbələkkimilər fəsiləsinə aiddir. Fin.az-da yer alan məlumatda bildirilir ki, tərkibindəki vitaminlərə, qidalılıq dəyərinə görə göbələyin qiyməti çox bahadır.**

Dünyanın lüks restoranlarının menyusuna daxil edilmiş göbələyin kiloqramı 200-3500 avro arasında dəyişir. Qara kürüdən sonra dünyada ən bahalı qida sayılır. Fransız və italyan mətbəxində lider mövqe tutan göbələk bütün yeməklərin hazırlanmasında istifadə olunur, xüsusi dada malikdir. Restoranlarda göbələkdən hazırlanmış yeməyin porsiyası 100 avro təşkil edir, bu cür yeməklərə "Kral yeməyi" adı verilib. İnsan sağlamlığına faydaları: tərkibindəki protein, mineral maddə miqdarı baxımından digər göbələkləri qabaqlayır, 76 faiz su, 9 faiz protein, 7 faiz karbohidrat və 8 faiz minerallardan ibarətdir. Peyğəmbərimiz Məhəmməd (s.ə.v) göbələyi şəfa mənbəyi adlandırıb, İbn Sina isə fiziki zəiflik, ağrı və yaraların sağaldılmasında tövsiyə edib. Kosmetika sənayesində də böyük tələbat olan göbələyin illik dövriyyəsi 6 milyard dollardır, ildən-ilə istehsal həcmi aşağı düşdüyü üçün qiyməti getdikcə bahalaşır. Bu gün dünyada cəmi 100 ton bu göbələkdən istehsal olunur, həcminin azalması meşə ərazilərinin yoxa çıxması ilə izah olunur. Dünyada göbələyin 70 növü bilinir, lakin "qara almaz" adını almış trüfel göbələyi növünə daha böyük tələbat var. Fransada açıq sahədə artırılaraq kütləvi satışı həyata keçirilir. Türkiyədə də artırılması ilə bağlı elmi araşdırmalar aparılır. Türkiyədən söz düşmüşkən, qardaş ölkənin Qırxlareli bölgəsində dombalanı təlim görmüş itlərin köməyi ilə toplayırlar. "Milliyet.com" yazır ki, yerli sakinlər trüfel göbələyini toplamaq üçün təlim görmüş itlərlə meşəyə gedir, axtarış aparır, gün ərzində 25-30 kilometr yol qət edirlər. 500 qram göbələk toplansa, bu, 150-800 avro məbləğində qazanc deməkdir. Qırxlareli Kənd təsərrüfatı və Meşə Müdirliyi rəhbəri Mehmet Aksoy AA müxbirinə bildirib ki, trüfel göbələyi yüksək gəlirli olduğundan onun toplanması məqsədilə xüsusi kurslar açacaqlar. Fermerlər həm ölkə iqtisadiyyatına, həm də şəxsi büdcələrinə xeyir verəcəklər. M.Aksoy trüfel göbələyinə tələbatın böyük olduğunu, toplanan məhsulun Səudiyyə Ərəbistanı, İngiltərə, Fransaya ixrac edildiyini deyib. Göbələk toplamaqla gəlir əldə edən Ziyafət Arslan isə 10 il əvvəl İtaliya və Belçikadan trüfel göbələyinin toplanması üçün xüsusi təlim görmüş Lagotto Romangnolo cinsi 2 it gətirib. Z.Arslan uzun illər İstanbulda özəl xəstəxanada fizioterapevt işləyib. Göbələk toplamağa hobbi kimi başlayıb, trüfel göbələyi və onun yüksək gəlirli olduğunu öyrəndikdə isə bunu özünə peşə edib. Həkimlikdən əlini üzüb göbələk biznesinə başlayıb. 15 ildir göbələk toplayır və bundan gəlir əldə edir. Təbii ki, köpəklərinin yardımı ilə.

**Məlahət**

## Dünyanın ən böyük qara almazı

### Hərracda 4,3 milyon dollara satılıb



**"Sotheby's" satış evinin keçirdiyi hərracda 555,55 karatlıq "Enigma" adlı qara almaz 3,16 milyon funt-sterlinqə (4,3 milyon dollar) satılıb və onun pulu kriptovalyuta ilə ödənilib. BBC News telekanalı xəbər verir ki, "Sotheby's" satış evi alıcının adını açıqlamasa da, sonradan məşhur kriptovalyuta həvəskarı, iş adamı Riçard Hart özünün "Twitter" səhifəsində almazı aldığını bildirib.**

**Qara almazı satışa çıxaran şəxs 20 il almazın sahibi olub və qiymətli daş bu müddət ərzində heç bir yerdə sərgilənməyib. "Enigma" indiyədək Braziliya və Mərkəzi Afrikada çox nadir hallarda aşkarlanan "karbonado" növünə aiddir. Bu növün tərkibində yalnız meteoritlərdə rast gəlinən "osbornit" mineralı olduğundan onların kosmik mənşəyi barədə versiya var. Həmçinin belə bir versiya da irəli sürülür ki, qara almazlar Yer kürəsində 2,6-3,2 milyard il bundan əvvəl, dinozavrlar yaranmazdan öncə əmələ gəlib.**

## Çöl donuzları sürü halında kəndə dolub



**Rusiyanın Leninqrad vilayətində yerləşən kəndlərdən birinə çöl donuzlarının kütləvi yürüşü olub. Oxu.az xəbər verir ki, yerli sakinlər bildirib ki, heyvanlar özləri ni sakit aparıb, insanlara, təsərrüfata hücum etməyiblər.**

**Ehtimal olunur ki, xüsusən havaların soyuq keçməsi ilə əlaqədar çöl donuzları qida tapmaq üçün yaşadıqları ərazini tərk etmək məcburiyyətində qalıb.**

## Əmrah boşandı



**Müğənni Əmrah və həyat yoldaşı Sibel Erdoğan boşanıb. Axşam.az xəbər verir ki, 2014-cü ildə baş tutan evliliyin uzun davam edən fikir ayrılığının ardından rəsmi şəkildə sonlandığı iddia edilib. Cütlük məsələ ilə bağlı hələlik heç bir açıqlama verməyib.**

***Qeyd edək ki, Əmrahla Sibelin Elyesa və Eleysa adlı iki övladı var. Əmrahın bundan əvvəlki həyat yoldaşından isə Tayfun adlı daha bir oğlu var. Lakin ata ilə oğul arasında münasibətlərin yaxşı olmadığı bildirilib.***



# Bakı da belə ola bilər(di)

### Budapeşt insan yönümlü əsl şəhər nümunəsidir



**"İnsan yönümlü şəhərlər" layihəsinin təsisçisi, bloger-urbanist Anar Əliyev Macarıstanın paytaxtı Budapeştə səfər edib. Şəhərdə gördüklərini, müşahidə etdiklərini videogörüntüyə alan A.Əliyev reportajını feysbuk hesabında, həmçinin Youtub.com kanalında da paylaşıb.**

Feysbuk səhifəsindəki paylaşımına A.Əliyev "Budapeşt gözəl şəhərdir. Məncə ona geniş reportaj həsr etməyə dəyər. Budapeşt insan yönümlü əsl şəhər nümunəsidir. Maraqlı olsa, izləyə bilərsiniz" sözlərini əlavə edib. Reportaj "Budapeşt. Bakı da belə ola bilərdi", başlığı altında verilir.

Reportajı izləyəndə sevimli Bakımıza adamın yazığı gəlir. Gözəlliyi ilə Budapeşt kimi neçə-neçə şəhərin "dizini yerə qoyacaq" Bakının ən böyük dərdi, deməli, insan yönümlü şəhər olmamasındadır. Nədir insan yönümlü şəhər olmaq? Şəhər sakini evdən işə, işdən evə rahat gedib-qayıda bilirsə, avtomobilini rahatca "parkovka" edə bilirsə, "parkovşik"lərlə çənə-boğaz olmağa ehtiyac qalmırsa, kartla işləyən avtobusa orta qapıdan minəndə sürücünün "ay xanım, düş aşağı, gəl kartı vur! Qabaq qapıdan min!" əmrini eşitmirsə, maşın yolunu keçmək istəyəndə sağa-sola baxmaqdan boynu əyilmirsə, sürücüyə "mən ölüm, əylə, yolu keçim", işarəsi ilə yalvarmırsa, yol kənarında dayanmış avtomobil və taksilərin arxadan gəlib onu vura biləcəyi qorxusu yaşamırsa, avtobusa minmək üçün yolun hərəkət hissəsi ilə qaçıb həyatını təhlükəyə atmırsa... (nə qədər qeyd edim hələ - M.R.) və sair... kimi hallar yoxdursa, deməli, bu şəhərdə hər bir detal vətəndaşın rahatlığının təmini üçün nəzərə alınıb. İnsanlar şəhər infrastrukturundan rahat şəkildə faydalana bilirlər. Deməli, şəhər insanın üstünə gəlmir, insan şəhərlə mehribancasına qovuşur. Budapeşt məhz belə şəhərdir. Anar Əliyevin reportajına görə yer ayırdıq ki, bəlkə Bakı şəhər rəhbərliyi, nəhayət silkələnib ayılsın. Görsün ki, Budapeştlə müqayisədə şəhərimiz nə haldadır. Bəri başdan, "Avropa şəhəridir, onlar həmişə müstəqil olublar. Biz "indi-indi" özümüzə gəlirik", kimi yersiz bəhanələrə cummayın. Macarıstan varlı-hallı dövlət deyil. Budapeştdə də Bakıdakı kimi milyonluq, milyardlıq yollar, körpülər salınmayıb. Budapeştdə 70 il əvvəlki tramvaylar, trolleybuslar, "İkarus"lar şütüyür ee!.. Amma necə! Anar Əliyevin gözü ilə baxaq.

*(Davamı səh: 7-də)*

**Məlahət**

## Şahzadə ikinci dəfə koronavirusa yoluxdu

### Çarlz karantin altına alınıb və bütün səfərləri, işgüzar görüşləri ləğv edilib



**Böyük Britaniya kraliçası II Yelizavetanın (II Elizabeth) oğlu, 73 yaşlı şahzadə Çarlz ikinci dəfə koronavirusa yoluxub.**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, şahzadənin koronavirus testinin nəticəsi pozitiv çıxıb. Test nəticəsi müsbət çıxdıqdan sonra şahzadə karantin altına alınıb və bütün səfərləri, işgüzar görüşləri ləğv edilib. Kraliça Yelizaveta taxta çıxmasının 70 illiyini ötən həftə qeyd edib. 70 illik hakimiyyəti ilə bağlı açıqlama yayan kraliça özündən sonra oğlu şahzadə Çarlzın taxt-taxca sahiblənməsini, həyat yoldaşı Kamillanın isə kraliça tituluna yiyələnməsini arzu etdiyini söyləmişdi. Bununla kraliça həm də əcəli yetişməmiş taxt-tacdan ayrılmayacağına işarə etmişdi. Kraliçanın bu açıqlama ilə Kamillanın qeyri-müəyyən statusuna aydınlıq gətirdiyi də hesab edilir. Məlumdur ki, şahzadə Çarlzın ilk həyat yoldaşı 1997-ci ildə faciəli şəkildə həyatını itirən şahzadə Diana olub. Diananın ölümündən sonra şahzadə Çarlz Kamila ilə evlənib. Kamillanın birinci evliliyindən 2 övladı var. Şahzadə Çarlzdan sonra taxta əyləşəcək varis isə şahzadənin böyük oğlu şahzadə Uilyamdır.

**Məlahət**

## Cütlük əsl ər-arvad kimi görünüb

### CeyLo çəkildiyi filmin premyerasına sevgilisi ilə gəldi



**Los-Ancelesdə "Marry me!" (Mənimlə evlən) filminin təqdimatı keçirilib.**

Qafqazinfo əbər verir ki, gecəyə ekran işinin baş rol ifaçısı pop-ulduz Cennifer Lopes də qatılıb. O, təqdimata aktyor sevgilisi Ben Affleklə gəlib.

Lopes premyera üçün xüsusi libas seçib - "Giambattista Valli" moda evinin kolleksiyasından əsl gəlinlik. Bahalı krujevadan ibarət mini-libası o, "Jimmy Choo"dan zərif tufli və güllü klatçla tamamlayıb.

Ben isə gecəyə smokinqdə qatılıb. Cütlük əsl ər-arvad kimi göründü.

Bu yaxınlarda "People" jurnalına müsahibə verən Lopes etiraf edib ki, Affleklə toy etməyi planlaşdırmır. Müğənni deyib ki, hər ikisinin ilk evliliyi uğursuz olub, ona görə indi hadisələri tələsdirmir və sadəcə andan zövq alırlar.

*Qeyd edək ki, filmdə Cennifer, demək olar, özünü - musiqiçi ərinin ona xəyanət etdiyini öyrənən pop-ulduzu oynayır. İntiqam almaq üçün Lopesin qəhrəmanı ilk rastına çıxan oğlana ərə getməyə qərar gəlir. Həmin oğlanı aktyor Ouen Uilson canlandırır.*